RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 108 (8701) CÜMƏ AXŞAMI, 27 may 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Qətiyyətin və milli dəyanətin təntənəsi

## İlham Əliyevin liderliyi ilə tariximizin qürur doğuran səhifələri yazılır

**Ötən il torpaqlarımızın müharibə yolu ilə işğaldan azad edilməsi xalqımızın müasir və müstəqillik tarixinin böyük hərbi-siyasi uğuru oldu. Əgər 1993-cü ildə Heydər Əliyev müstəqilliyimizin əbədi olmasını təmin etmişdisə, vətəndaş qarşıdurmasının, dövlətimizin parçalanmasının qarşısını almışdısa, Ulu Öndərin layiqli siyasi davamçısı Prezident İlham Əliyev də Azərbaycanın ərazi bütövlüyünü bərpa etmiş, işğal siyasəti yürüdən Ermənistanı güc yolu ilə cəzalandırmışdı.**

### 29 ildən sonra Azərbaycana tamamilə fərqli mənzərə hakimdir

Düz 29 il əvvəl, 1992-ci ilin may ayında Azərbaycanda hansı proseslərin cərəyan etdiyini yaxşı xatırlayırıq. Müstəqilliyimizin ağır günləri yaşanırdı, müasir tariximizin faciələrlə dolu səhifələri yazılırdı. Hakimiyyət uğrunda çəkişmələr Ermənistanın Azərbaycan torpaqlarını işğal etmək planlarını həyata keçirə bilməsi üçün əlverişli zəmin yaratdı və Şuşa, Laçın işğal olundu. AXC-Müsavat cütlüyü siyasi hakimiyyətə gəlmək üçün milli xəyanətə qol qoydu.

29 ildən sonra isə Azərbaycana tamamilə fərqli mənzərə hakimdir. Dövlətimizin və xalqımızın ən şərəfli günləri yaşanır, tariximizin qürur doğuran səhifələri yazılır. İndi Şuşa da azaddır, Laçın və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən "Xarıbülbül" festivalı artıq bərpa olunub.

Təbii ki, bütün bu uğurlarımızın kökündə hər şeydən əvvəl siyasi iradə, möhkəm qətiyyət, düzgün idarəçilik dayanır. Məhz bunların sayəsində Ulu Öndər Heydər Əliyev 1993-cü ildə, ümidlərin artıq tükəndiyi bir vaxtda Azərbaycanı xilas etmişdi. Özünün siyasi müdrikliyi ilə Heydər Əliyev xarici təsirlərin maraq dairəsində olan Azərbaycanı qorudu, müstəqilliyimizin itirilməsinə imkan vermədi, ölkəmizi inkişaf yoluna çıxardı. Heydər Əliyevin hələ həssas dönəmlərdə dünyanın aparıcı neft şirkətlərini Xəzərin karbohidrogen ehtiyatlarına cəlb etməsi onun siyasi müdrikliyinin göstəricisi idi.

Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk gündən həyata keçirdiyi siyasət isə respublikamızın davamlı yüksəlişini, möhkəmlənməsini, qüdrətlənməsini təmin edib. Bu inkişaf kompleks xarakter daşıyaraq cəmiyyət həyatının bütün sahələrində yüksəlişə yol açıb. Nəticə etibarilə Azərbaycan regionun lideri statusuna sahib olub, beynəlxalq enerji təhlükəsizliyində dünyanın aparıcı dövlətlərindən biri kimi tanınıb. Bütün bunların fonunda son illərin əsas reallıqlarından biri bugünkü Azərbaycanın öz tarixinin ən qüdrətli dövlətinə çevrilməsidir.

Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenin Respublika Günü münasibətilə Prezident İlham Əliyevə təbrik məktubunun məzmunu da güclü Azərbaycan dövlətinin təsdiqidir. "Bu il Azərbaycanın müstəqilliyinin 1991-ci ildə bərpa edilməsindən 30 il keçir. Bu müddət ərzində Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası xalqlarımız arasında əlaqələri gücləndirərək təhlükəsizlik, enerji və demokratik idarəetmə məsələlərində birlikdə çalışıblar. Amerika Birləşmiş Ştatları ötən il "Cənub qaz dəhlizi"nin işə salınması ilə Azərbaycanın Avropanın enerji şaxələndirilməsinə verdiyi töhfələri və bu il Xəzərdəki yatağın Türkmənistanla birgə kəşfiyyatına və işlənməsinə dair imzaladığı Anlaşma Memorandumunu qətiyyətlə dəstəkləyir.

Ardı 3-cü səh.

# Dünya liderlərindən İlham Əliyevə yüksək dəstək

## Respublika günü münasibətilə xarici ölkə rəhbərlərindən gələn təbrik məktubları Azərbaycan Prezidentinin yüksək beynəlxalq nüfuzunu bir daha təsdiq edir

**Hər bir dövlətin tarixində əlamətdar məqam olaraq həkk edilən yetərincə əlamətdar günlər var. Onların ən mühüm bayram kimi qeyd edilməsi isə, adətən, xarici ölkə rəhbərlərinin də diqqətindən kənar qalmır. Qarşılıqlı təbriklər diplomatik etiketin bir elementidir. Lakin bu məktublar yalnız nəciblik göstəricisi olmur, həm də onların müəllifləri təbriklərini ünvanladıqları Prezidentə və dövlətə münasibətlərini də əks etdirirlər.**

Bu baxımdan 28 May - Respublika Günü ilə bağlı Prezident İlham Əliyevə xarici həmkarları tərəfindən göndərilən məktubların elə ilkin təəssüratı ölkə rəhbərimizin və ümumilikdə, dövlətimizin yüksək beynəlxalq nüfuzunu aydın göstərir.

### ABŞ Azərbaycana minnətdarlıq edir

Dünyanın fövqəlgücü sayılan Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Bayden təbrik məktubunda "Amerika Birləşmiş Ştatları ötən il "Cənub qaz dəhlizi"nin işə salınması ilə Azərbaycanın Avropanın enerji şaxələndirilməsinə verdiyi töhfələri və bu il Xəzərdəki yatağın Türkmənistanla birgə kəşfiyyatına və işlənməsinə dair imzaladığı Anlaşma Memorandumunu qətiyyətlə dəstəkləyir" fikrini ifadə etməklə İlham Əliyevin qlobal miqyaslı təşəbbüslərini yüksək dəyərləndirir.

Ardınca isə C.Bayden NATO-nun Əfqanıstandakı missiyasına və terrorla mübarizə səylərinə verdiyi 20 illik dəstəyə görə Azərbaycana minnətdarlıq edir. Eyni zamanda ABŞ-ın ATƏT-in Minsk qrupunun həmsədri olaraq münaqişənin uzunmüddətli siyasi həllinə dair danışıqlarda kömək etməyə sadiq qaldığını vurğulayır.

### Fövqəlgüclər Azərbaycanla dostluq və əməkdaşlığa xüsusi önəm verirlər

Dünyanın nüfuzlu liderləri tərəfindən göndərilən digər təbriklərdə də Azərbaycan Prezidentinə və respublikamıza dəstək verildiyi bildirilir.

Çin Xalq Respublikasının Sədri Si Cinpin qeyd edir ki, hazırda Çin-Azərbaycan münasibətlərində fəal inkişaf dinamikası müşahidə olunur. İki ölkə əsas maraqlara aid məsələlərdə bir-birini dəstəkləyir. Eyni zamanda "Bir kəmər, bir yol" müştərək layihəsi üzrə ölkələrimizin əməkdaşlığı dərinləşməkdə davam edir, COVID-19 pandemiyasına qarşı birgə mübarizədə nəzərəçarpacaq nəticələr əldə olunur.

Si Cinpinin "Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına xüsusi əhəmiyyət verirəm, ölkələrimizin və xalqlarımızın rifahı naminə ikitərəfli dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi üçün Sizinlə birgə səylər göstərməyə hazıram" fikri isə dünyanın ən qüdrətli ikinci iqtisadi gücü olan dövlətinin İlham Əliyevə aşkar dəstəyidir.

Ardı 3-cü səh.

# Sülh və inkişafa xidmət edən möhtəşəm tədbir

**Tarix təkrar-təkrar sübuta yetirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin ən mühüm xüsusiyyətlərindən biri dəyərlərə söykənməsi, ardıcıllığı və bu günün reallıqlarına əsaslanaraq gələcəyə hesablanmasıdır.**

Bu günlərdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" mövzusunda videoformatda keçirilən müzakirələr də bunun daha bir təsdiqi oldu.

### Hər kəsin marağına uyğun siyasət

Beynəlxalq tədbirin materialları ilə tanışlıq dövlət rəhbərimizin yürütdüyü strateji xəttin nə qədər aydın, məqsədyönlü xarakter daşıdığını göstərdi. Prezident İlham Əliyev bu günün reallıqları və gələcək perspektivlərlə bağlı ən mürəkkəb suallara da mükəmməl cavablarının olduğunu nəzərə çatdırdı. Azərbaycan bütün addımları, həyata keçirdiyi tədbirlərlə, qazandığı uğurlarla bu gələcəyin mənzərəsini yaradır. Milliyyətindən, dinindən, mədəniyyət fərqlərindən asılı olmayaraq bu, hər kəsin hüzur içində, qarşılıqlı hörmət ruhunda yaşayacağı parlaq gələcəkdir. Azərbaycan öz nümunəsi ilə hər bir bəşər övladını belə bir mühiti yaratmağın, belə bir gələcəyi qurmağın mümkünlüyünə ürəkdən inandırır və nurlu məqsədləri və əməlləri ilə buna addım-addım nail olur.

Bu gün bütün dünyanın nəzərləri həm də Azərbaycandakı multikulturalizm, tolerantlıq, mədəniyyətlərarası dialoq mühitindədir. Ölkəmiz illərdir ki, Qərb və Şərq sivilizasiyalarının təmas məkanına çevrilib. Tarixən bu torpaqlarda mövcud olan tolerantlıq ənənələri daha da inkişaf etdirilir. Bu ənənələr üzərində tolerantlığın Azərbaycan nümunəsi dünyaya təqdim edilir. Bakıda, digər iri şəhərlərimizdə bu yöndə beynəlxalq tədbirlər keçirilir. Azərbaycandan dünyaya multikultural dəyərlərin yayılması, innovativ inkişaf, insan kapitalının dəstəklənməsi, cəmiyyətdə savadlılıq səviyyəsinin yüksəldilməsi, ətraf mühitin mühafizəsi, sosial problemlərin həlli və s. qlobal məsələlərlə bağlı müasir çağırışlar ünvanlanır. Bu, əslində Azərbaycan Prezidentinin, dövlətimizin və xalqımızın birgə uğurudur. Ona görə ki, tarixi prosesləri dəqiqliklə görüb, gələcəyi aydın proqnozlaşdırmağı bacaran Liderə, bütün bu prosesləri ölkənin və xalqın maraqlarına ən uyğun şəkildə idarə etmək də çətin olmur.

Müzakirələrdəki çıxışlar, verilən suallara cavablar, məsələlərə konseptual yanaşmalar bu gün regionda əsas reallıqları məhz Prezident İlham Əliyevin diktə etdiyini, gələcəyi onun formalaşdırdığını sübuta yetirir. Ən mühüm məqam isə ondan ibarətdir ki, Prezidentimizin baxışları, yürütdüyü siyasət təkcə Azərbaycan xalqının və dövlətinin deyil, bölgədə yaşayan bütün xalqların, Cənubi Qafqaz ölkələrinin, ümumilikdə isə regionda maraqları olan hər kəsin mənafeyinə uyğundur. Bu uzlaşmanı təmin etməksə ona görə mümkün olur ki, Azərbaycan Prezidentinin yürütdüyü siyasətin, müəyyən etdiyi kursun əsas qayəsində insan durur.

Ardı 6-cı səh.

# "Ağ qızıl" bu il də üz ağardacaqmı?



### Fermerlər bütün hallarda ötənilki nəticələrini üstələməyi hədəfləyiblər

Dövlət tərəfindən aqrar sektora verilən dəstək sayəsində əksər kənd təsərrüfatı məhsullarının istehsalı ildən-ilə artır. Xüsusilə Prezident İlham Əliyevin ənənəvi sahələrin dirçəldilməsi ilə bağlı verdiyi qərarlar, fermerlərə edilən güzəştlər nəticəsiz qalmır.

Bunun sayəsində son bir neçə ildə tütünçülükdə, baramaçılıqda, pambıqçılıqda, çəltikçilikdə, meyvəçilikdə və digər sahələrdə böyük dönüş yaranıb.

Dövlət başçısının pambıqçılığın inkişafı ilə bağlı qərarı, bu sahədə çalışan fermerlərə edilən güzəştlər bu strateji məhsulun istehsalının da xeyli artmasına səbəb olub. Artıq pambıqçılıqla məşğul olan fermerlər gübrə, toxum, kimyəvi preparatlar və xüsusi texnika ilə təmin edilirlər. Onlara əkin sahələrinə və istehsal etdikləri məhsula görə subsidiyalar da ayrılır. Ən başlıcası isə fermerlər becərdikləri məhsulun satışı ilə bağlı alıcı şirkətlərlə əvvəlcədən müqavilə bağlayırlar. Bu da onlarda məhsul satışında heç bir problem olmayacağına inamı artırır.

Dövlət tərəfindən pambıqçılığın aqrar sektorda strateji sahə elan edilməsi Biləsuvar pambıqçılarına da əlavə stimul verib. Bunun nəticəsidir ki, cari ildə rayonda 7500 hektardan çox sahədə çiyid səpilib.

Cari il rayonda 1491 istehsalçı ilə 4 tədarükçü şirkət arasında 8 min 550 hektar sahədə pambıq əkini üçün müqavilə imzalanıb. Bağlanan müqavilələrə uyğun olaraq fermerlər lazımi texnika, toxum, gübrə və kimyəvi preparatlarla tam təmin edilirlər. Üstəlik, yetişdiriləcək məhsulun münasib qiymətə alınması barədə də müqavilə imzalanıb.

Ardı 6-cı səh.

◆ "Qarabağ söhbətləri"

# Şuşanın Anarı

*...Anadır arzulara hər zaman Qarabağ*
*Danışan dil-dodağım tar, kaman Qarabağ.*
*Qarabağ, can, Qarabağ, ana yurdum...*

*O gün uzun illərdən sonra bu mahnıya göz yaşları içində, nisgillə deyil, sevinclə qulaq kəsildik. Müğənni də ürəklə, şövqlə, qürurla oxuyurdu. Bir neçə ay əvvəl bu mahnını ifa edən Əməkdar artist Yaqut Abdullayeva mahnının içində "Can, Qarabağ" kəlməsini ana yaralı övladına təsəlli verməyə çalışırmış kimi dərin yanğı ilə vurğulayırdı. O gün, "Can, Qarabağ" sədaları sevinc qanadlarında qayalarda əks-səda verib ta haqqın dərgahına qədər uzanırdı...*

*"Qarabağ söhbətləri"nə bu dəfə Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarla belə başladıq.*

*Şuşanın ötən əsrin 50-ci, 80-ci, 90-cı illərinin şahidi, Şuşada film çəkən, Şuşanın işğalının ağrısını yaşayan və işğaldan sonrakı Şuşanı ziyarət edib qürurlanan yazıçıyla...*

### İlk pyesimi Şuşada yazdım

- Şuşa ilə, Qarabağla bağlı xatirələrim çoxdur, özü də hamısı munis xatirələrdir. İlk dəfə 1954-cü ildə olmuşam Şuşada. Onda mənim 14 yaşım vardı, ailəlikcə istirahətə getmişdik. "Sənin nəğmən yaxşıdır" adlı ilk pyesimi də Şuşada yazdım və o zamandan da bu peşəni seçdim.

O vaxt Şuşa Azərbaycan şəhəri təəssüratı yaratmırdı. Şəhərə girən kimi bir erməni qızının heykəli qoyulmuşdu.

Ardı 4-cü səh.




# Avropanın enerji tarixində yeni səhifə

### "Cənub qaz dəhlizi"nin açılış mərasimindən 3 il keçir

"Cənub qaz dəhlizi" Azərbaycan qazının Avropa qitəsinə nəqlini həyata keçirən nəhəng bir layihədir. Bu dəhliz dörd mühüm seqmenti birləşdirir. Bunlar "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi, CQBK-nın (Cənubi Qafqaz Boru Kəməri) genişləndirilməsi, TANAP-ın (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) çəkilişidir.

İki ilk seqmentin -"Şahdəniz-2"dən qazın əldə olunması və CQBK-nın genişləndirilməsinin başa çatdırılması layihənin rəsmi açılışını etməyə imkan vermişdir. Mərasim 2018-ci il mayın 29-da Bakı yaxınlığındakı Səngəçal terminalında keçirilmişdir.

Növbəti ayda - iyunun 12-də TANAP da istismara daxil oldu. Bu münasibətlə Türkiyədə, Əskişəhərdə təntənəli tədbir keçirildi. Sonuncu seqment olan TAP-ın çəkilişi keçən ilin sonunda yekunlaşdı.

"Cənub qaz dəhlizi"nin uzunluğu 3500 kilometrdir. Dəhlizi təşkil edən, bir-birinə möhkəm "halqa" ilə bağlanan üç kəmər böyük ehtiyatlara malik "Şahdəniz" yatağından hasil olunan qazın Avropa bazarına ötürülməsini təmin edir.

TANAP-la artıq üç ilə yaxındır Türkiyəyə "Şahdəniz" qazı ixrac olunur. TAP da qısa müddətdə xeyli mavi yanacaq nəql edib. Belə ki, bu kəmərlə indiyədək Avropaya 2 milyard kubmetrdən çox qaz göndərilib.

"Cənub qaz dəhlizi"nin təməli 2014-cü il sentyabrın 20-də - "Əsrin müqaviləsi"nin 20 illik yubileyi günü Səngəçal terminalında qoyulmuşdur.

Ardı 6-cı səh.

# Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illik yubileyinin keçirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2021-ci ildə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının yaradılmasının 100 illiyi tamam olur.

Bakı Musiqi Akademiyası müsəlman Şərqinin yeni tipli ali musiqi təhsili ocağı kimi dahi bəstəkar Üzeyir Hacıbəylinin təşəbbüsü ilə fəaliyyətə başlamışdır. Hələ ilk illərdən tədris prosesində Şərq musiqisinin çoxəsrlik ənənələrini və Avropa musiqi təhsilinin qabaqcıl təcrübəsini vahid məcrada birləşdirən, peşəkar musiqiçi kadrların hazırlanmasına və klassik musiqi irsimizin sistemli öyrənilməsinə xüsusi diqqət göstərən akademiya ötən müddət ərzində nailiyyətlərlə zəngin böyük bir inkişaf yolu keçmiş, üzərinə düşən vəzifələrin öhdəsindən həmişə layiqincə gəlmişdir. Azərbaycan mədəniyyəti tarixinə parlaq səhifələr yazan, musiqi sənətimizi ölkəmizin hüdudlarından xeyli uzaqlarda da uğurla təmsil edən və yaradıcılığı Azərbaycan musiqisinin qızıl fonduna daxil olan görkəmli sənətkarların, tanınmış ifaçıların bir neçə nəsli məhz Bakı Musiqi Akademiyasının məzunlarıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan musiqi mədəniyyətinin inkişafında və professional musiqiçi kadrların yetişməsində mühüm rol oynamış Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 may 2021-ci il*

# Azərbaycan Respublikasında modul tipli təhsil müəssisələrinin quraşdırılması işlərinin davam etdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişaf etdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının ərazisində modul tipli təhsil müəssisələrinin (siyahı əlavə olunur) quraşdırılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.13.3-cü yarımbəndində göstərilmiş 10,0 (on) milyon manat Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 may 2021-ci il*

*Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 26 may tarixli Sərəncamına Əlavə*

## Azərbaycan Respublikasının ərazisində quraşdırılması nəzərdə tutulan modul tipli məktəblərin siyahısı

| Sıra №-si | Tədbirin adı | Ayrılan vəsait (manatla) | İcra müddəti |
|---|---|---|---|
| 1. | Ağsu rayonunun Təklə kəndində 80 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 350.000,0 | 2021 |
| 2. | Cəlilabad rayonunun Şorbaçı kəndində 80 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 350.000,0 | 2021 |
| 3. | Cəlilabad rayonunun Şükürlü kəndində 80 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 350.000,0 | 2021 |
| 4. | Cəlilabad rayonunun Alaşar kəndində 80 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 350.000,0 | 2021 |
| 5. | Cəlilabad rayonunun Hasıllı kəndində 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 350.000,0 | 2021 |
| 6. | Cəlilabad rayonunun Cəfərli kəndində 20 şagird yerlik modul tipli ibtidai orta məktəbin quraşdırılması | 207.000,0 | 2021 |
| 7. | Cəlilabad rayonunun Albalan kəndində 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 382.000,0 | 2021 |
| 8. | Daşkəsən rayonunun Qabaqtəpə kəndində 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 382.000,0 | 2021 |
| 9. | Daşkəsən rayonunun Qaratağlar kəndində 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 256.000,0 | 2021 |
| 10. | Gədəbəy rayonunun Pərizamanlı kəndində 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 382.000,0 | 2021 |
| 11. | Gədəbəy rayonunun Qaravəlilər kəndində 56 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 283.000,0 | 2021 |
| 12. | Xaçmaz rayonunun Xudatkənd kəndində 132 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 425.000,0 | 2021 |
| 13. | İmişli rayonunun Axıcanlı kəndində 132 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 425.000,0 | 2021 |
| 14. | İmişli rayonunun Məmmədli kəndində 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 382.000,0 | 2021 |
| 15. | Qax rayonunun Çüdüllü kəndində 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 283.000,0 | 2021 |
| 16. | Quba rayonunun Şuduq kəndində 40 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 256.000,0 | 2021 |
| 17. | Quba rayonunun Qrız kəndində 20 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 207.000,0 | 2021 |
| 18. | Qusar rayonunun Qənərçay kəndində 56 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 283.000,0 | 2021 |
| 19. | Qobustan rayonunun Ərəbşahverdi kəndində 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 350.000,0 | 2021 |
| 20. | Lerik rayonunun Şonayçola kəndində 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 283.000,0 | 2021 |
| 21. | Lerik rayonunun Ordahal kəndində 20 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 207.000,0 | 2021 |
| 22. | Sabirabad rayonunun Qaragünə kəndində 1 nömrəli 132 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 424.000,0 | 2021 |
| 23. | Şabran rayonunun Söhbətli kəndində 40 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 256.000,0 | 2021 |
| 24. | Şamaxı rayonunun Pirpəhli kəndində 40 şagird yerlik ümumi orta məktəbin quraşdırılması | 256.000,0 | 2021 |
| 25. | Şəmkir rayonunun Yuxarı Çaykənd kəndində 80 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 350.000,0 | 2021 |
| 26. | Tovuz rayonunun Baqqallı kəndində 56 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 283.000,0 | 2021 |
| 27. | Tovuz rayonunun Pələkli kəndində 40 şagird yerlik ümumi orta məktəbin quraşdırılması | 256.000,0 | 2021 |
| 28. | Tərtər rayonunun Şıxarx kəndində 1 nömrəli 80 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 350.000,0 | 2021 |
| 29. | Ucar rayonunun Yuxarı Şilyan kəndində 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 382.000,0 | 2021 |
| 30. | Yardımlı rayonunun Arvana kəndində 80 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 350.000,0 | 2021 |
| 31. | Yardımlı rayonunun Bərcan kəndində 80 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 350.000,0 | 2021 |
| | **Cəmi:** | **10.000000,0** | |

# *Azərbaycan XİN:* Ermənistan tərəfindən yayılan məlumatlar həqiqətə uyğun deyil

**Mayın 25-də Ermənistan-Azərbaycan dövlət sərhədində Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın Geqarkunik rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi ərazisindəki mövqelərinin, guya, Kəlbəcər rayonu ərazisindən atəşə tutulması barədə Ermənistan tərəfindən yayılan məlumatlar həqiqətə uyğun deyil.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidməti tərəfindən bu xüsusda verilən açıqlamalarda sözügedən ittihamların yalan xarakteri daşıdığı, Azərbaycan Silahlı Qüvvələrinin bölmələri tərəfindən Ermənistan ərazisinə atəş açılmadığı bəyan edilib.

Ermənistan tərəfindən yayılan növbəti yalan, qarşı tərəfin öz silahlı qüvvələri arasında baş verən insidentin məqsədli şəkildə sərhəd məntəqəsində vəziyyətin gərginləşdirilməsi üçün istifadə edilməsi cəhdidir.

Ümumiyyətlə, son zamanlar Ermənistan silahlı qüvvələri arasında itkilərin, o cümlədən qeyri-hərbi itkilərin artması, sonuncu hal da daxil olmaqla Ermənistan silahlı qüvvələri daxilində müvafiq araşdırmaların aparılması zərurətini üzə çıxarır.

Vurğulamaq istərdik ki, hazırda Azərbaycan-Ermənistan sərhədində vəziyyət sabitdir və nəzarət altındadır.

Ermənistan tərəfini yalan bəyanatlarla vəziyyəti gərginləşdirməməyə, bu və digər məsələlərlə bağlı fikir ayrılıqlarının həllində konstruktiv danışıqlar aparılmasına çağırırıq.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Milli bayramınız - Respublika Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Azərbaycan sosial-iqtisadi, elmi-texniki və digər sahələrdə nəzərəçarpan uğurlara nail olub. Sizin ölkəniz dünya arenasında yüksək nüfuz qazanıb, beynəlxalq gündəlikdəki çoxsaylı mühüm məsələlərin həllində fəal rol oynayır.

Biz Azərbaycan ilə mehriban dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan münasibətləri yüksək qiymətləndiririk. Əminəm ki, biz birgə səylərimizlə bundan sonra da xalqlarımızın rifahı, regional təhlükəsizliyin və sabitliyin təmin edilməsi naminə bütün sahələrdə strateji tərəfdaşlığı və səmərəli əməkdaşlığı hərtərəfli möhkəmləndirəcəyik.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və uğurlar, bütün həmvətənlərinizə firavanlıq və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

❖ ❖ ❖

Möhtərəm Prezident!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə zati-alinizi, dost və qardaş Azərbaycan Respublikası dövlətini və xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ölkəniz müstəqilliyini bərpa etdiyi ilk günlərdən etibarən İran İslam Respublikası ilə Azərbaycan Respublikası iki səmimi qonşu kimi tarixi, mədəni və dini bağlara əsaslanaraq, yüksəksəviyyəli qardaşlıq və mehriban qonşuluq münasibətləri nümayiş etdirmişlər. Əmin olduğumu bildirirəm ki, hər iki ölkə gələcəkdə də zəngin mədəniyyətimizdən və qədim tariximizdən ilhamlanaraq qarşılıqlı anlaşma prinsipinə, xalqlarımızın istəyinə uyğun olaraq, əməkdaşlığın, siyasi, iqtisadi və mədəni əlaqələrin genişlənməsi, regional sülh və sabitliyin möhkəmlənməsi istiqamətində birgə hərəkət edəcək.

Sonda Allah-təaladan zati-alinizə möhkəm cansağlığı və müvəffəqiyyətlər, Azərbaycan Respublikasının şərafətli xalqına isə xoş günlər arzulayıram.

*Hörmətlə,*

***Həsən RUHANİ,***
***İran İslam Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident!

Respublika Günü münasibətilə Sizi İtaliya xalqı adından və şəxsən öz adımdan təbrik edir, Azərbaycan Respublikasının firavan gələcəyi naminə səmimi arzularımı çatdırıram.

Bakı ilə Romanı yalnız energetika sektorundan mədəniyyət sahəsinə qədər olan və ortaq maraqlara söykənən, ikitərəfli münasibətlərin bütün istiqamətləri üzrə əldə edilən strateji məqsədlər deyil, həm də xalqlarımızın gələcək rifahını təmin edəcək çoxşaxəli tərəfdaşlıq birləşdirir.

Azərbaycanlılar və italyanlar arasında qarşılıqlı rəğbət və səmimi dostluğun olması pandemiyanın ən pis dövrlərində yenidən öz təsdiqini tapdı. Bunun da qarşılıqlı həmrəylik təşəbbüsləri ilə nəticələndiyini görmək mənim üçün xüsusi məmnunluq mənbəyidir.

Bu kontekstdə ümid edirəm ki, tezliklə Avropa İttifaqi ilə Azərbaycan arasında yeni tərəfdaşlıq sazişi imzalanacaq. Əminəm ki, bu, ölkələrimiz arasında artıq mövcud olan möhkəm və çoxşaxəli münasibətlərin daha da inkişafına təkan verəcək.

Dərin hörmət hissi ilə Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, dost Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

*Hörmətlə,*

***Sercio MATTARELLA,***
***İtaliya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Sizə xoşbəxtlik, xalqınıza yüksək rifah arzularımı çatdırmaqdan məmnunluq duyuram.

*Hörmətlə,*

***Əlahəzrət NARUHİTO,***
***Yaponiya İmperatoru***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə Serbiya xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırır və ölkənizə tərəqqi, vətəndaşlarınıza yüksək rifah diləyirəm.

Əminəm ki, qarşıdakı dövrdə ölkələrimiz arasında dialoqu ən ali və ən yüksək səviyyədə intensivləşdirəcəyik, bu da strateji münasibətlərimizi daha güclü, daha dinamik və daha yaxşı vəziyyətə gətirəcək.

Cənab Prezident, ölkələrimiz arasındakı ənənəvi dostluq münasibətlərini möhkəmləndirmək üçün birlikdə çalışacağımıza çox inanıram. Bu baxımdan Azərbaycan Respublikasındakı yeni səfirimiz Draqan Vladisavljeviçin ümumi münasibətlərimizin dərinləşməsinə öz töhfəsini verəcəyinə əminəm.

Həmçinin ikitərəfli münasibətlərimizin iqtisadi aspektinə xüsusi diqqət yetirdiyimizi vurğulamaq istərdim. Bu səbəbdən Serbiyanın xarici işlər naziri Nikola Selakoviçin Azərbaycan Respublikasına qarşıdakı səfəri zamanı keçiriləcək Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın növbəti, altıncı iclasını səbirsizliklə gözləyirik.

Fürsətdən istifadə edərək bu ilin oktyabrında Belqradda Qoşulmama Hərəkatının ilk konfransının 60-cı ildönümünü qeyd etmək təşəbbüsümüzə müsbət yanaşdığınıza görə təşəkkür edirəm. Görüşümüzü səbirsizliklə gözləyirəm, əminəm ki, bu, qarşılıqlı maraq doğuran bütün məsələləri müzakirə etmək üçün əla bir fürsət olacaq.

Qondarma Kosovonun birtərəfli elan edilmiş müstəqilliyi ilə bağlı mövqelərimizi anlayışla qarşıladığı üçün Azərbaycan Respublikasına minnətdarlığımı bildirirəm. Eyni zamanda Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyini dəstəklədiyimizi bir daha vurğulamaq istərdim.

Cənab Prezident, Sizə bir daha dərin ehtiramımı ifadə edirəm.

***Aleksandr VUÇİÇ,***
***Serbiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına İsveçrə Federal Şurası və İsveçrə xalqı adından ən səmimi təbriklərimi çatdırır, zati-alinizə və ölkənizin vətəndaşlarına xoşbəxtlik, rifah və yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra ölkələrimiz arasında yaxşı və etibarlı münasibətlər formalaşıb ki, bu da bizə böyük qlobal çağırışlara qarşı birgə mübarizə aparmaqda kömək edir. İcazə verin, İsveçrənin ölkələrimiz arasındakı mehriban və məhsuldar əməkdaşlıq münasibətlərinin davam etdirilməsinə və daha da gücləndirilməsinə sadiqliyini bir daha bildirim.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Qi PARMÖLƏN,***
***İsveçrə Konfederasiyasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına şəxsən öz adımdan və Albaniya xalqı adından ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Azərbaycan üçün belə önəmli gündə ölkələrimiz və xalqlarımız arasında mövcud olan dostluq münasibətlərini yüksək qiymətləndirir, eyni zamanda birgə səylərimiz sayəsində bu əlaqələrin gələcəkdə daha da inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminliyimi bildirirəm.

Albaniyanın qlobal enerji dəhlizləri şəbəkəsinin bir hissəsinə çevrilməsinə töhfə verən TAP və IAP qaz kəməri layihələrinin ölkəmdə uğurla həyata keçirilməsini vurğulayaraq, bu sahədə dəstəyinizə görə Sizə minnətdarlığımı bildirirəm. Eyni zamanda əmin olduğumu bildirmək istəyirəm ki, ölkələrimiz arasında qarşılıqlı maraq doğuran digər sahələrdə də əməkdaşlığa dair yeni imkanlar üçün möhkəm zəmin mövcuddur.

Zati-aliləri, Sizinlə Tiranada və ya Bakıda görüşmək arzumu bir daha bildirirəm.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***İlir META,***
***Albaniya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Sizi və xalqınızı milli bayramınız - Respublika Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Təsadüfi deyil ki, bəzi Qərb ölkələrindən onilliklər əvvəl qadınlara səsvermə hüququ verən ölkəniz müsəlman dünyasında ilk demokratik və dünyəvi respublikanın elan olunmasının ildönümünü özünün Milli Günü kimi seçdi. 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyətinin ənənələri bütün dünyada hörmətə layiqdir. Təəssüf ki, eyni ildə köhnə dünyanın xarabalıqları üzərində qurulan Çexoslovakiyadan fərqli olaraq, o dövr dünyasının sərt reallıqlarında Azərbaycan Xalq Cümhuriyyətinə müstəqilliyini qorumaq nəsib olmadı.

Sizə və bütün həmvətənlərinizə səmimi-qəlbdən arzu edirəm ki, XXI əsrin üçüncü onilliyində ölkəniz bütün qonşuları ilə sülh şəraitində yaşayan, azad, müstəqil və firavan dövlət olaraq müasir Azərbaycanın müstəqilliyini quranların ümid və arzularına uyğun inkişaf etsin.

İcazə verin, fürsətdən istifadə edərək Sizi əmin edim ki, Çex Respublikası ilə Azərbaycan Respublikası arasındakı münasibətlərin hazırkı səviyyəsini yüksək qiymətləndirirəm. Ümid edirəm ki, bu münasibətlər daha da inkişaf edəcək. Mən ölkələrimiz arasındakı əlaqələrin davamlı olaraq dərinləşməsinə və inkişafına böyük əhəmiyyət verirəm.

Zati-aliləri, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

***Miloş ZEMAN,***
***Çex Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Hindistan hökuməti və xalqı adından, şəxsən öz adımdan Sizə və Azərbaycan xalqına səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Hindistan ilə Azərbaycan arasında qədim dostluq əlaqələri mövcuddur. İkitərəfli münasibətlərimizin gələcək illərdə daha da güclənəcəyinə və şaxələnəcəyinə əminəm.

Cənab Prezident, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***Ram Nat KOVİND,***
***Hindistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, Azərbaycan xalqına tərəqqi və rifah arzularımı çatdırıram.

Fürsətdən istifadə edərək ölkələrimiz arasında ikitərəfli münasibətlərin xalqlarımızın rifahı naminə daha da inkişaf etdirilməsi istiqamətində birgə işləyəcəyimizə ümidvar olduğumu bildirirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Katerina SAKELLAROPULU,***
***Yunanıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının milli bayramı - Respublika Günü münasibətilə Xorvatiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizi ürəkdən təbrik edir, xalqınıza tərəqqi və rifah arzulayıram.

Əminəm ki, hamılıqla pandemiyanın və onun nəticələrinin aradan qaldırılması üçün mübarizə apardığımız bu çətin vaxtda dost və müttəfiq ölkələrimiz münasibətlərimizin təşviqi üzərində işləyəcək və yeni əməkdaşlıq formaları tapacaq. Xüsusilə hər iki ölkənin enerji və infrastruktur sahələrindəki iqtisadi potensialı daha səmərəli və daha əhəmiyyətli əməkdaşlıq üçün stimul ola bilər.

Cənab Prezident, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

***Zoran MİLANOVİÇ,***
***Xorvatiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram. Zati-alinizə möhkəm cansağlığı, ölkənizə sabitlik, davamlı iqtisadi və sosial inkişaf arzulayıram.

Əminəm ki, ölkələrimiz arasında dostluq əlaqələri qarşıdakı illərdə daha da möhkəmlənəcək.

Sizə ən yüksək ehtiramımı bildirirəm.

***Norodom SİHAMONİ,***
***Kambocanın Kralı***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Milli bayramınız - Respublika Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Şübhə yoxdur ki, Sizin peşəkar və şəxsi keyfiyyətləriniz sayəsində müstəqil Azərbaycan bütün istiqamətlərdə sürətli inkişaf yolu ilə irəliləyir, regionda və dünyada mövqelərini inamla möhkəmləndirir. Siz dövlətin qarşısına qoyulmuş məsələləri savadlı və səmərəli şəkildə həll edirsiniz. Bu, fədakar əməyin və aşkar məqsədyönlülüyün nəticəsidir. Sizin yürütdüyünüz düşünülmüş və uzaqgörən xarici siyasət Azərbaycana beynəlxalq arenada haqlı olaraq nüfuz qazandırıb.

Fürsətdən istifadə edib Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) fəaliyyətinə göstərdiyiniz maraq və diqqətə, onu şəxsən dəstəklədiyinizə görə minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycan Respublikası ŞƏT-in dialoq üzrə tərəfdaşı kimi təşkilatın Katibliyinin müşahidəçilər və dialoq üzrə tərəfdaşlarla qarşılıqlı fəaliyyətinin inkişafına dair Yol Xəritəsinin təqdim etdiyi imkanları fəal şəkildə reallaşdırır. Təşkilatın 20 illiyi ərəfəsində 2021-ci il mayın 24-də ŞƏT-in Katibliyində böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyinə həsr edilmiş mədəniyyət gecəsi buna parlaq sübut oldu. Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan səfirliyi tərəfindən ŞƏT-in Katibliyi ilə birgə təşkil edilmiş tədbir respublikanın zəngin mədəni potensialını və onun xalqının mənəviyyatını nümayiş etdirdi, tədbirə dəvət olunmuş bütün qonaqlar bunu hiss edə bildilər.

Nizami Gəncəvinin büstünün ŞƏT-in Katibliyinə hədiyyə edilməsinə görə xüsusi təşəkkürümü bildirmək istərdim. Bu hədiyyə öz əsərləri ilə həm Şərq, həm də dünya ədəbiyyatının sonrakı inkişafına böyük təsir göstərmiş şair və filosofun böyüklüyünün təcəssümüdür.

Əminəm ki, biz birgə səylərimizlə qarşılıqlı maraq doğuran məsələlər üzrə qarşılıqlı faydalı əməkdaşlığı ŞƏT çərçivəsində bundan sonra da uğurla davam etdirəcək, bizim təşkilatın üzvü olan bütün ölkələr arasında mədəni əlaqələri möhkəmləndirəcəyik.

Zati-aliləri, icazə verin Sizə ən səmimi təbriklərimi, möhkəm cansağlığı, uğurlar, ailə firavanlığı arzularımı, Azərbaycan Respublikasının xalqına isə sülh, xoş güzəran və firavanlıq diləklərimi bildirim!

*Səmimi hörmətlə,*

***Vladimir NOROV,***
***Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi***

# Baş nazir Əli Əsədov Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini Müstəqillik günü münasibətilə təbrik edib

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyə ölkəsinin Müstəqillik günü münasibətilə təbrik məktubu ünvanlayıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məktubda Azərbaycan ilə Gürcüstan arasındakı dərin tarixi köklərə əsaslanan çoxşaxəli əlaqələrin, strateji tərəfdaşlığın məmnunluq doğurduğu vurğulanıb. Azərbaycan-Gürcüstan münasibətlərinin bundan sonra da dinamik inkişafını müvəffəqiyyətlə davam etdirəcəyinə əminlik ifadə olunub.

# Nazirlər Kabineti xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması barədə qərar qəbul edib

**Mayın 26-da Azərbaycan Respublikasinin Nazirlər Kabineti xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə qərar qəbul edib.**

AZƏRTAC xəbər verir ki, bu barədə qərarı Baş nazir Əli Əsədov imzalayıb. Qərarda deyilir:

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2021-ci il 1 avqust saat 06:00-dək uzadılsın.

2. Müəyyən edilsin ki:

2.1. 2021-ci il 31 may saat 06:00-dan:

2.1.1. açıq havadakı ictimai yerlərdə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və s.) istifadə edilməsi tələbi ləğv edilir;

2.1.2. Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti bərpa edilir;

2.1.3. ölkənin şəhər və rayonlarından yerüstü və hava nəqliyyatı ilə sərnişin daşımaları bərpa edilir.

2.2. 2021-ci il 10 iyun saat 00:00-dan aşağıdakı iş və xidmət sahələrinin fəaliyyəti bərpa edilir:

2.2.1. dini ibadət yerlərinin (eyni vaxtda ibadət üçün nəzərdə tutulan yerlərin 50 faizindən (ümumi olaraq 50 nəfərdən) çox olmamaqla);

2.2.2. iri ticarət mərkəzlərinin (nəzdindəki uşaq və digər əyləncə mərkəzlərinin, kinoteatrların fəaliyyəti istisna olmaqla);

2.2.3. bu Qərarın 2.3-cü bəndi nəzərə alınmaqla idman və sağlamlıq-bərpa obyektlərinin (tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə tələbi olmadan);

2.2.4. çimərliklərin və onların ərazisində yerləşən hovuzların, su attraksionlarının və idman oyunu yerlərinin;

2.3. yaşı 18-dən aşağı olan şəxslərdən başqa, idman və sağlamlıq-bərpa obyektlərindən yalnız COVID-19 pasportu (COVID-19-a qarşı peyvənd sertifikatına malik olan) və ya COVID-19-a qarşı immunitet sertifikatı (COVID-19-dan sağalaraq immunitetə malik olan) olan şəxslər istifadə edə bilərlər;

2.4. 2021-ci il iyulun 1-dən etibarən COVID-19 pasportu və ya COVID-19-a qarşı immunitet sertifikatı tələbi müəyyən edilən iş və xidmət sahələrinin işçilərinin ən azı 80 faizinin belə pasporta və ya sertifikata malik olması tələb olunur;

2.5. bu Qərarın 2.1-ci və 2.2-ci bəndlərində nəzərdə tutulan iş və xidmət sahələrində koronavirus infeksiyasına qarşı Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları ilə, həmçinin digər dövlət orqanları (qurumları) tərəfindən müəyyən edilmiş bütün tələblərə və metodiki göstərişlərə əməl edilməsi məcburidir;

2.6. 2021-ci ildə futbol üzrə Avropa çempionatının Bakı şəhərində keçiriləcək 4 oyununda məhdud sayda tamaşaçının iştirakına icazə verilir;

2.7. bu Qərarın tələblərinin pozulmasına görə fiziki, hüquqi və vəzifəli şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

3. "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanun-vericilik Toplusu, 2020, N 9, maddələr 1209, 1231, N 10, maddələr 1274, 1275, 1278, 1283, 1298, 1314, 1315, N 11, maddələr 1387, 1394, N 12, maddələr 1588, 1592, 1612; 2021, N 1, maddələr 92, 106; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 3 mart tarixli 48 nömrəli, 19 mart tarixli 71, 72 nömrəli və 19 aprel tarixli 100 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bənddə "1 iyun" sözləri "1 avqust" sözləri ilə əvəz edilsin;

3.2. 1.1.15-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.1.15. 2021-ci il 5 iyun saat 00:00-dan 7 iyun saat 06:00-dək, 13 iyun saat 00:00-dan 14 iyun saat 06:00-dək, 19 iyun saat 00:00-dan 20 iyun saat 06:00-dək, 26 iyun saat 00:00-dan 28 iyun saat 06:00-dək ictimai nəqliyyatda, həmçinin Bakı Metropolitenində sərnişindaşıma fəaliyyətinin dayandırılması.".

4. "Xüsusi karantin rejimində tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə tələbləri barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 may tarixli 189 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, N 5, maddə 660) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.2-ci bəndə "bazarlarda" sözündən əvvəl "qapalı" sözü əlavə edilsin;

4.2. 1.7-ci və 1.8-ci bəndlər ləğv edilsin.

5. "Xüsusi karantin rejimində tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 19 noyabr tarixli 451 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, N 11, maddə 1395) ləğv edilsin.

6. "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında nəzərdə tutulan məhdudiyyətlər bu Qərara zidd olmayan hissədə öz qüvvəsini saxlayır.

7. Bu Qərar 2021-ci il 31 may saat 06:00-dan qüvvəyə minir.

# Dövlət reabilitasiya müəssisələrinin təşkili və fəaliyyəti qaydası təsdiqlənib

Nazirlər Kabineti dövlət reabilitasiya müəssisələrinin təşkili və fəaliyyəti qaydasını təsdiqləyib.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

Qaydaya əsasən, reabilitasiya müəssisələrinin strukturu və əlilliyi olan şəxslərin reabilitasiya müəssisəsinə qəbul edilməsi və müəssisədən çıxarılması qaydaları müəyyən edilir. Bununla yanaşı, dövlət reabilitasiya müəssisələrində əlilliyi olan şəxslərin tibbi, psixoloji, pedaqoji, idman, sosial-iqtisadi və peşə-əmək tədbirlər sistemi vasitəsilə reabilitasiyasının aparılması müəyyən edilib.

Əlilliyi olan şəxslər Fərdi Reabilitasiya Proqramında təsdiq olunmuş reabilitasiya tədbirlərinin həyata keçirilməsi məqsədilə reabilitasiya müəssisələrinə qəbul edilirlər. Müəssisəyə qəbula ən azı 2 (iki) iş günü qalmış bu barədə məlumat əlilliyi olan şəxsin əlaqə vasitələrinin birinə (telefon, elektron poçt və ya mobil tətbiqlər vasitəsilə və s.) göndərilir.

Həmçinin qaydada əlilliyin erkən diaqnostikası, sağlamlığın qorunması tədbirləri, ətraf mühitin ekoloji vəziyyətinin yaxşılaşdırılması, sağlam həyat tərzinin və təhlükəsiz əmək şəraitinin təmin edilməsi, istehsalat zədələrinin, peşə xəstəliklərinin yayılmasının qarşısının alınması məqsədilə (dövlət büdcəsinin vəsaiti hesabına göstərilən sosial xidmətlərin zəmanət verilmiş həcmi istisna olmaqla) müqavilə əsasında müvafiq ödənişli xidmətlər göstərilməsi əks olunub.

# Qətiyyətin və milli dəyanətin təntənəsi

## İlham Əliyevin liderliyi ilə tariximizin qürur doğuran səhifələri yazılır

*Əvvəli 1-ci səh.*

Biz Azərbaycana NATO-nun Əfqanıstandakı missiyasına və terrorla mübarizə səylərinə verdiyi 20 illik dəstəyə görə minnətdarıq", - deyə Prezident Cozef Bayden bildirir.

Bəli, bir vaxtlar informasiya blokadasında olan, öz həqiqətlərini dünyaya çatdıra bilməyən Azərbaycana indi dünyanın ən güclü dövlətlərindən birinin rəhbəri həm minnətdarlığını bildirir, həm də dəstəyini ifadə edir.

### Azərbaycan Prezidenti bütün təzyiqləri sərkərdə qətiyyəti ilə dəf etdi

Bütün dövrlərdə dövlətimiz üçün prioriet məsələ torpaqlarımızın işğaldan azad edilməsi olub. Beynəlxalq hüququn normaları Azərbaycanın tərəfində olsa da, problemin həlli ilə bağlı vasitəçilərin iştirakı ilə aparılan danışıqlarda hər zaman ikili standartlar özünü göstərib. Məsələnin təəssüf doğuran digər tərəfi də odur ki, bu proseslə işğala məruz qalan Azərbaycana təzyiqlər olunub, ölkəmizin işğalla barışması üçün müxtəlif siyasi cəhdlər göstərilib. Lakin Azərbaycan beynəlxalq mövqelərimizin zəif olduğu vaxtlarda belə, respublikamızın milli maraqlarına zidd olan razılaşmaları yaxına buraxmayıb.

Prezident İlham Əliyev isə hər zaman bəyan edib ki, Azərbaycan ərazisində ikinci erməni dövlətinin qurulmasına imkan verilməyəcək. Eyni zamanda dövlət başçısı hər zaman bildirib ki, sülh danışıqları nəticəsiz qalarsa, Azərbaycan Ordusu öz sözünü deyəcək. Beləliklə, İlham Əliyev necə demişdisə, elə də oldu. Ermənistanın sülh danışıqlarını pozmasından və cəbhə xəttində hərbi təxribatlarından sonra başlanan İkinci Qarabağ müharibəsi Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı, torpaqlarımız işğaldan azad olundu, ərazi bütövlüyümüz bərpa edildi.

Azərbaycan üçün Vətən savaşına çevrilən İkinci Qarabağ müharibəsi bütün xalqımızın qətiyyətinin göstəricisi oldu. Böyükdən-kiçiyə qədər, dilindən, dinindən, əqidəsindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşları vahid amal uğrunda birləşdilər, Prezident İlham Əliyevin ətrafında sıx səfərbər oldular.

İnsanları daha məğrur edən və qələbə əzminə kökləyən isə Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti idi. Müharibə günlərində Azərbaycanı öz yolundan döndərmək üçün müxtəlif istiqamətlərdən siyasi-diplomatik təzyiqlərin şahidi olduq. Hətta BMT-də Ermənistanın milli maraqlarını ifadə edən sənədin qəbuluna cəhd göstərdilər. Lakin İlham Əliyev bütün diplomatik təzyiq və təhdidlərə sərkərdə qətiyyəti ilə sinə gərdi, BMT-də məlum sənədin qəbulunun qarşısı alındı. İlham Əliyev informasiya savaşında dünya erməniliyini darmadağın etdi, erməni yalanlarına böyük zərbə vurdu.

### Qarabağ əvvəlki şöhrətini bərpa edəcək

Artıq işğal olunmuş torpaqlarımız azad nəfəs alır. Amma işğal illərində düşmən vandal mahiyyətindən irəli gələrək kənd və şəhərlərimizi dağıdıb, ekoloji soyqırım həyata keçirib, təbii sərvətlərimizi talan edib. Tarix sübut edir ki, bu cür vandallığı yalnız sivil və mədəni dünyagörüşündən uzaq olan xalqlar edirlər. Düşmənimizin milli təfəkkürü belə vandallıq və barbarlıq hisslərinə söykənir.

İndi işğaldan azad edilmiş bütün ərazilərimiz bərpa olunur, şəhər və kəndlərimiz yenidən qurulur. Bu məsələdə də ölkə ictimaiyyəti ilk gündən Prezident İlham Əliyevin qətiyyətini görməkdədir. İlham Əliyevin ötən ilin noyabrından işğaldan azad olunmuş ərazilərə 8 dəfə səfər etməsi göstərir ki, dağıdılmış yurd yerlərimizin bərpası prioritet vəzifələr sırasındadır.

Düşmənin illərboyu vurduğu yaraların hamısı sağalacaqdır. Prezident İlham Əliyevin xüsusi qayğısı və qətiyyəti nəticəsində işğaldan azad olunmuş torpaqlara yeni nəfəs gələcək və Qarabağ əvvəlki şöhrətini bərpa edəcəkdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Daimi Şurasının xüsusi iclasında çıxış edib

**Mayın 25-də Avstriya Respublikasına işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Daimi Şurasının xüsusi iclasında çıxış edib.**




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, çıxışında nazir Ceyhun Bayramov Azərbaycanın ATƏT-ə verdiyi önəmi, Helsinki Yekun Aktından başlayaraq ATƏT-in əsas sənədlərində təsbit olunmuş prinsiplərə hörmət və ciddi riayət edilməsinin əhəmiyyətini vurğulayıb.

Ermənistanın Azərbaycana qarşı təcavüzü, son 28 il ərzində münaqişənin həlli üzrə sərgilədiyi qeyri-konstruktiv yanaşma, bu ölkənin 44 günlük müharibə zamanı Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi cinayətlər də daxil olmaqla, törətdiyi müharibə və insanlıq əleyhinə cinayətlərə diqqət çəkib.

Nazir Ermənistanın hərbi təxribatlarına cavab olaraq ötən ilin 27 sentyabr tarixində Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi əks-həmlə əməliyyatını qeyd edərək, bunun nəticəsində Azərbaycanın öz suverenliyi və ərazi bütövlüyünü bərpa etdiyini vurğulayıb. 2020-ci il 10 noyabr, eləcə də 2021-ci il 11 yanvar tarixlərində Azərbaycan, Ermənistan və Rusiya liderləri tərəfindən imzalanmış üçtərəfli bəyanatların icrasının əhəmiyyəti qeyd olunub.

Hazırkı mərhələdə işğal faktorunun aradan qaldırılması ilə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması imkanının yarandığı, bunun hər iki ölkənin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət əsasında mümkün olduğu diqqətə çatdırılıb. Bu xüsusda həmçinin Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin imzalanmasının mümkünlüyünə toxunulub.

Çıxışda nazir habelə münaqişəsonrası bərpa, yenidənqurma və reinteqrasiya proseslərinin əhəmiyyətini vurğulayıb. Bu istiqamətdə Azərbaycanın ATƏT-in icraçı strukturları ilə əməkdaşlıq etməyə davam edəcəyi qeyd olunub. Münaqişənin həllinin regionda sülh, təhlükəsizlik və əməkdaşlıq üçün yeni perspektivlər yaratdığı, ATƏT-in də bu proseslərə töhfə verə biləcəyi vurğulanıb.

Nazir Ceyhun Bayramovun çıxışına cavab olaraq ATƏT-in iştirakçı dövlətlərinin əksəriyyətinin daimi nümayəndələri çıxış ediblər. Çıxışlarda 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra bölgədə vəziyyətin sabitləşməsinin önəmi və bunun davamına ehtiyacın olması, sülhün möhkəmləndirilməsi üçün növbəti addımların atılmasının əhəmiyyəti, üçtərəfli Bəyanatdan irəli gələn məsələlərinin icrasının vacibliyi, yüksək səviyyədə siyasi dialoqun bərpasına ehtiyac, müharibədən sonrakı dövrdə inam və etimad quruculuğu tədbirlərinin həyata keçirilməsinin zəruriliyi, habelə humanitar tədbirlərin həyata keçirilməsi və bu istiqamətdə əməkdaşlığın əhəmiyyəti, regionda iqtisadi və nəqliyyat bağlantılarının açılmasının önəmi, Azərbaycan-Ermənistan sərhədində baş vermiş son gərginliyin danışıqlar yolu ilə həllinin vacibliyi vurğulanıb.

Görüş zamanı nazir Ceyhun Bayramov Ermənistan nümayəndəsi tərəfindən Azərbaycana qarşı səsləndirilən əsassız iddiaları cavablandırıb.

# Azərbaycan ilə Nüvə Sınaqlarının Hərtərəfli Qadağan edilməsi Müqaviləsi Təşkilatı arasında gələcək əməkdaşlıq imkanları müzakirə edilib

Avstriyaya işgüzar səfəri çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov mayın 26-da Nüvə Sınaqlarının Hərtərəfli Qadağan edilməsi Müqaviləsi Təşkilatının icraçı katibi Lassina Zerbo ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Nüvə Sınaqlarının Hərtərəfli Qadağan edilməsi Müqaviləsi Təşkilatı ilə Azərbaycan arasındakı mövcud ümumi əməkdaşlığın səviyyəsindən razılıq bildirilib, gələcək əməkdaşlıq imkanları müzakirə edilib.

Görüşdə nazir C.Bayramov 44 günlük Vətən müharibəsi barədə qarşı tərəfə ətraflı məlumat verib, həmsöhbətinin diqqətini müharibə zamanı Ermənistan tərəfindən heç bir fərq qoyulmadan istifadə edilən və proporsional olmayan müharibə metodlarına çəkib.

Ermənistan tərəfindən mülki obyektlərə raket hücumlarının həyata keçirildiyini qeyd edən nazir bu xüsusda fiziki sübutlarımızın mövcudluğuna istinad edib və aidiyyəti mexanizmlərlə əməkdaşlıq imkanlarından faydalandığımızı bildirib.

# Azərbaycanın xarici işlər naziri BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin icraçı direktoru ilə görüşüb

Mayın 26-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Vyana bölməsinin baş direktoru, BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin (BMTNCİ) icraçı direktoru xanım Gada Vali ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Görüşdə Azərbaycan ilə BMTNCİ arasındakı əməkdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olunub. Tərəflər narkotiklərin qeyri-qanuni dövriyyəsi, korrupsiya və digər transmilli cinayətkarlıq növlərinə qarşı mübarizədə meydana çıxan çətinliklər barədə müzakirə aparıb və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsi ilə bağlı razılıq əldə ediblər.

Görüşdə həmçinin korrupsiyaya qarşı mübarizə istiqamətində Azərbaycan Respublikasının uğurlu modeli olan "ASAN xidmət" və DOST mərkəzləri barədə fikir mübadiləsi aparılıb və bu müsbət təcrübənin paylaşılmasının əhəmiyyəti vurğulanıb.

# Azərbaycan ilə Türkiyə arasında ali təhsil sahəsində əməkdaşlıq çərçivəsində görülən işlər müzakirə olunub

Təhsil naziri Emin Əmrullayev Türkiyə Respublikası Qazi Universitetinin rektoru Musa Yıldızın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı təhsil naziri Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında ali təhsil sahəsində əməkdaşlıq çərçivəsində görülən işlər barədə qonaqlara məlumat verib. Nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində Qazi Universiteti ilə Azərbaycan Texniki Universiteti arasında ikili diplom proqramı haqqında müqavilənin və Mingəçevir Dövlət Universiteti ilə əməkdaşlıq protokolunun imzalanması yüksək qiymətləndirilib.

# Dünya liderlərindən İlham Əliyevə yüksək dəstək

*Əvvəli 1-ci səh.*

Milli bayramınız - Respublika Günü münasibətilə Azərbaycan xalqına və İlham Əliyevə təbriklərini, ən xoş arzularını çatdırmaqdan böyük məmnunluq duyan Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabetin məktubunda isə deyilir: "Keçirdiyimiz bu çətin ildən sonra qlobal səhiyyənin üzləşdiyi maneələri dəf edəcəyimizə və gələcəkdə daha gözəl günlər yaşayacağımıza olan ümidimi ifadə etmək istəyirəm".

### İlham Əliyevə ehtiram və etimadın nümunəsi

Ümumiyyətlə, İlham Əliyevə ünvanlanan təbrik məktublarında onun liderlik bacarığı, idarəçilik istedadı xüsusi vurğulanır.

Məsələn, Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerin məktubunda deyilir ki, son 29 ildə hökumətlərimiz və xalqlarımız arasında münasibətlər daim genişlənib və inkişaf edib. Hər iki ölkə gələcəkdə qarşılıqlı anlaşma və etimadı daha da gücləndirməyə nail olacaq.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təbrikində deyilir: "Biz Azərbaycanı qədim və zəngin mədəni irsə malik olan ölkə, Sizin hərtərəfli düşünülmüş və uzaqgörən siyasətiniz sayəsində bütün sahələrdə sürətli tərəqqiyə nail olmuş, öz milli maraqlarının səmərəli müdafiəsində və tarixi ədalətin bərpa edilməsində böyük uğurlar qazanmış dövlət hesab edirik, bundan sonra da sizi hərtərəfli dəstəkləməyə hazır olduğumuzu bildiririk".

Şavkat Mirziyoyev tam əmindir ki, qardaş xalqlar arasında qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan çoxəsrlik dostluq və strateji tərəfdaşlıq telləri birgə səylər və yüksək səviyyədə səmərəli dialoq sayəsində daha da möhkəmlənəcək və bütün prioritet istiqamətlərdə tamamilə yeni səviyyəyə yüksələcək.

Gürcüstanın Prezidenti Salome Zurabişvili isə məktubunda qeyd edir ki, gürcü və Azərbaycan xalqları öz dövlətçiliklərini bərpa etmək üçün bir çox çətinlik və faciələrdən keçiblər, lakin bu gün hər iki ölkə qürurla güclü və azad dövlət qurmaqda davam edir.

Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin isə qeyd edir ki, ictimai-siyasi və sosial-iqtisadi sahələrdə mühüm uğurlar əldə edən Azərbaycan bu gün dünya arenasında layiqli yer tutur.

Azərbaycan Prezidentinə dünyanın müxtəlif ölkələrindən təbrik məktubları gəlməkdə davam edir. Bu məktublarda dünya dövlətlərinin liderləri, ilk növbədə, Azərbaycanla əmakdaşlıqda maraqlı olduqlarını xüsusi vurğulayırlar. Onların içərisində Niderlandın Kralı Villem-Aleksandr, İsveçin Kralı XVI Karl Qustav, Xorvatiya Prezidenti Zoran Milanoviç, Avstriya Respublikasının Federal Prezidenti Aleksander Van der Bellen, Hindistan Prezidenti Ram Nat Kovind, İndoneziya Prezidenti Coko Vidodo, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Xəlifə bin Zayed Al Nəhyan, Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi, Kuba Prezidenti Migel Dias-Kanel Bermudes, Mərakeşin Kralı VI Məhəmməd, Sinqapur Prezidenti xanım Həlimə Yaqub və digərlərinin təbrik məktublarını qeyd etmək olar.

Bir sözlə, İlham Əliyevə ünvanlanan məktubların coğrafi miqyası nə qədər genişdirsə, qarşılıqlı əməkdaşlığın dərinləşməsinə ifadə olunan ümidlər də çox böyükdür.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

◆ "Qarabağ söhbətləri"



# Şuşanın Anarı

Əvvəli 1-ci səh.

Nelson Stepanyanın heykəli vardı. Şuşa adlı Azərbaycan şəhərində bir nəfər azərbaycanlının belə heykəli yox idi. Atam təklif verdi ki, dincəldiyimiz istirahət evinə Üzeyir bəy Hacıbəylinin adını versinlər. Təklifə baxıldı və ora Üzeyir bəyin adını verdilər. Şuşa haqqında ilk təəssüratım bunlardır.

Sonrakı illərdə Ulu Öndər Heydər Əliyevlə bir yerdə Şuşada olmuşam. Onun iştirak etdiyi tədbirlərə mən də qatılmışam. Üzeyir bəy Hacıbəyli günlərində, Molla Pənah Vaqifin məqbərəsinin açılışında olmuşam...

## Şuşada "Uzun ömrün akkordları"nı çəkdim

- 1981-ci ildə isə ən çox yadımda qalan Şuşa günləridir. O il Şuşada "Uzun ömrün akkordları" filmini çəkirdim. Həmin il həm atamı itirdim, həm də anamı. Aprelin 1-də atam vəfat etdi, iyulun 10-da anam. Mən hər cümə axşamı günü Şuşadan Bakıya gəlib cüməaxşamı verirdim, sonra yenə qayıdırdım Şuşaya.

Film çıxanda çox bəyəndilər, haqqında yaxşı rəylər oldu. Ağız büzənlər də vardı. Sonra Qarabağ, Şuşa işğal olunanda həmin adamlar dedilər ki, nə yaxşı çəkmisən o vaxt bu filmi, indi heç olmasa ona baxıb Şuşa yanğısına su səpirik.

Şuşa bülbüllərini də çəkmişdik, filmdə kadrlar var. İndi bu festivalda oxunan "Bayatı-şiraz" o vaxt "Bülbüllər" uşaq qrupunun ifasında lentə alınmışdı. Qədir Rüstəmovu Cabbar Qaryağdı roluna çəkmişdik, o da həmin kadrlarla tarixiləşdi.

Filmin bir dəyəri də məncə, bunlardır. Bir də onu yaxşı xatırlayıram ki, şuşalılar ata-anamı itirdiyimi bilirdilər və mənə xüsusi həssaslıqla yanaşırdılar. Bu, çox duyğulu xatirədir.

Şuşa o vaxt da indiki kimi müqəddəs idi, çox gözəl idi. Heydər Əliyev hakimiyyətə gələndən sonra Şuşanın məhz Azərbaycan şəhəri olduğunu, onun öz simasını şəhərdə gördüyü işlərlə təsdiqlədi. Bu şəhərdə Natəvanın, Bülbülün, Üzeyir bəyin heykəlləri qoyuldu. Üzeyir bəyin, Bülbülün muzeyləri yaradıldı. Vaqifin məqbərəsi tikildi. Bir daha təsdiqləndi ki, bu şəhər Azərbaycan şəhəridir. Sovet vaxtı bizim ağlımıza gəlməyən formada şəhəri erməniləşdirirdilər, qarşısı alındı.

İşğaldan azad ediləndən sonra görürük ki, Şuşanı məhv etməyə, erməniləşdirməyə çalışıblar. Amma bunu bacarmayıblar. İndi Şuşa Azərbaycanın mədəniyyət mərkəzidir. Şuşa Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, sənətinin mühüm qalasıdır.

Hər yay, bəzən iki ildən bir Şuşada dincəlirdik ailəlikcə... Atam, anam rəhmətə gedəndən sonra da bu ənənə davam etdi. Yenə öz ailəmlə gedirdim Şuşaya. Qızım Günel balaca idi, Qarabağ onun hafizəsində necə xoş xatirələrlə həkk olunubsa, "Qarabağ hekayələri"ni yazıb və çox təsirli alınıb. Mən də oxuyanda o həyəcanı hiss etdim, yaşadıqlarımızı xatırladım.

## "Xarıbülbül" festivalı yalnız sənət hadisəsi deyil

- Bu ildən Şuşada "Xarıbülbül" festivalının bərpası çox böyük hadisə oldu. Bu, yalnız sənət hadisəsi deyil, həm də tarixdir, siyasətdir. Bir yandan ədalətin bərpasının göstəricisidir. Qədim Azərbaycan şəhərində yenə Azərbaycan mədəniyyəti, sənəti yüksəldi, azərbaycanlılar doğma yurda qayıtdı. İkincisi, oranı dağıdan ermənilərdən azad edib Şuşanı qurmaq amalı ilə qayıtdıq Şuşaya.

Prezident İlham Əliyevin göstərişi ilə Şuşada quruculuq işləri başlanıb və davam edir. Ermənilər mono millətdir. Qarabağdan da hamını qovub yalnız özləri yaşamaq istəyirdilər, Ermənistanda olduğu kimi. Biz göstərdik ki, Azərbaycan multikultural bir ölkədir. Bu ölkədə yaşayan hər bir azlıq öz sənətini də yaşadır, simasını da saxlayır. Nəhayət, bu onu sübut etdi ki, ədalət var. Dünya kar idi, kor idi və elə bil belə də olmalı idi. Allahınsa ədaləti var. Allahın köməyi, müzəffər ordumuzun səyi, Ali Baş Komandanın iradəsi ilə ədalət bərpa olundu.

Ədalətin bərpası ora yığışan azərbaycanlıların, şuşalıların gözlərində parıldayırdı. Vasif Adıgözəlovun çox gözəl əsəri Yalçın Adıgözəlovun müşayiətində səslənirdi.

## Həyatda nə baş verirsə - dərsdir

- Əlbəttə Şuşada doğulmuş, orda evləri olan adamların həsrəti bizdən daha artıq idi. Şuşada olanda həmişə rəhmətlik Süleyman Ələsgərov bizi evinə qonaq dəvət edirdi. İndi baxdım ki, o ev yerləyeksan edilib. Zülfü Adıgözəlovun, Şuşinskilərin evləri olub orda. Şuşanın 70 faizini dağıdıblar, 30 faizi qalıb. Mənasız millətdir də, deyir mənimdir, bəs səníndirsə, niyə dağıdırdın? Bütün dünya gülür bunlara.

Pənahəli xanın 270 il bundan əvvəl özülünü qoyduğu şəhər niyə erməni şəhəri olmalıdır? Elə bil uşaqdılar, həm də tərbiyəsiz uşaq. Hələ geri almaq barədə cəfəngiyat danışırlar. 10 milyon azərbaycanlı sənə şəhər verməz. 3 milyonunla gəl al, görək necə alırsan. Heç kəsə də arxalanma, göründü ki, arxalanmağının əhəmiyyəti olmadı.




Tərəflərini yalnız media saxladı. İndi biz bundan da nəticə çıxarmalıyıq. Gərək elə iş görək ki, orda bizm də səsimiz olsun. Bütün təbliğatı 44 günlük müharibədə Prezidentimiz təkbaşına apardı. 4 dildə müsahibələr verdi. Bu hər birimiz üçün nümunə olmalıdı.

## Qarabağla bağlı, ordakı talelərdən hələ çox yazılacaq

- Həyatda nə baş verirsə, ondan dərs alıb hərəkət etmək lazımdır. Çox dərslər götürdük, həm də onun nəticəsində qələbə qazandıq. Şuşanı, Qarabağı azad etdik. Həyat dərsdir, yenə öyrənib yenə qələbə qazanarıq. Şuşada möhkəmlənib qələbələri davam etdirmək lazımdır.

"Qarabağ şikəstəsi" adlı böyük yazım var, çoxdan çap olunub. Yenə "Qarabağ dastanı-30 ilin həsrəti, 44 günün zəfəri" adlı hekayələr toplusunda da çap ediləcək. Kitabda səkkiz rayondan çıxan yazıçının hərəsi öz rayonu haqqında yazıb.

"Otel otağı" povestimdə Xocalıdan olan qadının hekayəti yer alıb. Həm də onu danışmışdılar mənə, olan hadisədir. Mövzu o qədər yaralıdır ki, hələ çox toxunmaq olmur, qan verir. Zamanla hamısı yazılacaq. Qarabağla bağlı, ordakı talelərdən hələ çox yazılacaq. Orada baş verən hadisələr çox əsərlərdə yer alacaq.

*Xalq yazıçısının arzularına qoşuluruq, əlbəttə ki, əsərlər yazılacaq.*

*Qarabağ isə yenidən qurulacaq, yeni arzulara qucaq olacaq.*

*Axı, "Anadır arzulara hər zaman Qarabağ"...*

**Ramilə QURBANLI,**
**"Azərbaycan"**

# Heydər Əliyev yenilməz dühası ilə Azərbaycanın müstəqilliyini əbədi və dönməz edib

Mayın 26-da Milli Məclisin Regional məsələlər komitəsinin və Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli Assosiasiyalarının birgə təşkilatçılığı ilə "Müstəqilliyimiz əbədidir, daimidir və dönməzdir" mövzusunda videokonfrans keçirilib.

Videokonfransı giriş sözü ilə açan Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov yaradılmasının 103-cü ildönümü ərəfəsində olduğumuz Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki yeri barədə danışıb. O, Azərbaycan Xalq Cümhuriyyətinin müsəlman aləminin ilk demokratik respublikası olmasından, qısa ömründə gördüyü böyük işlərdən, həyata keçirdiyi demokratik islahatları ilə dövrün bir çox qərb dövlətlərini qabaqlamasından söhbət açıb. Bildirib ki, həmin dövrdə də indiki kimi ikili standartlar var idi və AXC xadimləri cümhuriyyəti tanıtmaq, onun müstəqilliyini qorumaq üçün böyük əmək sərf ediblər. O dövrdə Ermənistanın təcavüzü, daxili və xarici düşmənlərin məkrli niyyətləri ilə qarşılaşan Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini yenidən bərpa edəndə də eyni problemlərlə üzləşib. Lakin 1993-cü ildə ölkəmizdə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görməsi ölkədə ictimai-siyasi sabitliyi bərqərar edib. Ulu Öndər Azərbaycan Xalq Cümhuriyyətinin ideyalarını, ənənələrini müasir müstəqil Azərbaycanın quruculuğunda yaşadıb, öz yenilməz dühası ilə Azərbaycanın müstəqilliyini əbədi və dönməz edib. Prezident İlham Əliyevin komandanlığı ilə 44 günlük Vətən müharibəsində əldə olunan qələbə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə onun müstəqilliyini sarsılmaz, gələcək inkişafını davamlı edib.

Tədbirdə çıxış edən Azərbaycan Şəhər Bələdiyyələri Milli Assosiasiyasının sədri, Nərimanov bələdiyyəsinin sədri Təmraz Tağıyev Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 103 illiyi ərəfəsində Respublika günü münasibətilə Prezident İlham Əliyevə dünya liderlərindən çoxsaylı təbriklərin gəlməsini Azərbaycanın və onun dövlət başçısının beynəlxalq aləmdə artan nüfuzu ilə əlaqələndirib. Bildirib ki, Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin qətiyyətli liderliyi və müdrik siyasəti sayəsində Azərbaycan dövlətçiliyinin əsasları daha da inkişaf edib və onun beynəlxalq aləmdə nüfuzu artaraq lider ölkəyə çevrilib.

Tədbirdə çıxış edən deputatlar Malik Həsənov və Məzahir Əfəndiyev cümhuriyyət dövrünün mürəkkəb tarixi şəraitini xarakterizə ediblər, həyata keçirdiyi işlərdən danışaraq onun Azərbaycan dövlətçiliyi tarixində tutduğu yeri yüksək dəyərləndiriblər. Qeyd olunub ki, Azərbaycan dövləti və xalqı Xalq Cümhuriyyətinin qurucularının xatirəsini daim əziz tutub, onların xatirəsini yaşadıb. Deputatlar Ulu Öndərin Azərbaycanın müstəqilliyinə, cümhuriyyət ideallarına sadiqliyini vurğulayaraq onun uzaqgörən siyasətinin bugünkü nailiyyətlərimizin bünövrəsini təşkil etdiyini vurğulayıblar.

Konfransda Gəncə şəhəri Nizami bələdiyyəsi sədrinin müavini Leyla Məmmədova, Lerik bələdiyyəsinin sədri Balaşirin Nəsirov, Neftçala bələdiyyəsi sədrinin müavini Jalə Sərdarzadə, Xəzər rayonu Binə bələdiyyəsinin sədri Habil Həmidov, Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyasının icra katibinin müavini Əli Əkbərli, Qaradağ rayonu Sahil bələdiyyəsinin sədri Elmira Əliyeva mövzu ilə bağlı çıxış ediblər.

Videokonfransın işinə yekun vuran Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov digər illərdən fərqli olaraq bu il 28 May - Müstəqillik Gününü ölkəmizin ərazi bütövlüyü tam bərpa olunmuş tarixi bir şəraitdə qeyd etdiyimizi vurğulayıb. Komitə sədri bu xoşbəxtliyi bizə bəxş etmiş şəhidlərimizin əziz xatirəsinə və ailələrinə, qazilərimizin problemlərinə böyük diqqətlə, həssaslıqla yanaşmağı bələdiyyələrdən xahiş edib.

Onlayn tədbirdə Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, deputatlardan Kamran Bayramov, Aqil Məmmədov, Səttar Möhbalıyev, Bələdiyyə İşçiləri Həmkarlar İttifaqı Komitəsinin, Azərbaycan Şəhər, Qəsəbə, Kənd Bələdiyyələrinin Milli Assosiasiyalarının rəhbərliyi və nümayəndələri, həmçinin 60-dan çox şəhər, qəsəbə və kənd bələdiyyəsinin sədrləri iştirak ediblər.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**

# Ermənistanın ekologiyamıza vurduğu ziyan faktlarla MDB parlamentarlarının diqqətinə çatdırılıb

Mayın 26-da MDB PA-nın 2 daimi komissiyasının videokonfrans formatında iclasları və birgə təşkil etdikləri "dəyirmi masa" keçirilib.

MDB PA-nın Mədəniyyət, informasiya, turizm və idman üzrə daimi komissiyasının onlayn iclasında Milli Məclisin deputatları - bu komissiyanın sədr müavini Rauf Əliyev və Tamam Cəfərova iştirak ediblər.

Qeyd edək ki, gündəlikdəki "MDB-yə üzv ölkələrin rəqəmsal inkişaf sahəsində əməkdaşlığı"na və bu sahədə model qanun yaradıcılığına, həmçinin "MDB dövlətlərində elektron formada çap olunmuş nəşrin məcburi surətinin təqdim edilməsi məsələsində vahid yanaşmanın müəyyənləşdirilməsi"nə dair tövsiyə layihələrinə Azərbaycan parlamentinin təklif etdiyi dəyişikliklər və əlavələr öncədən quruma təqdim olunub.

Videokonfransda Rauf Əliyev "Teatr və teatr fəaliyyəti haqqında" model qanun layihəsinə və bu ilin sentyabrında Krasnoqorskda keçiriləcək idman kinoları festivalına dair müzakirələrdə fikirlərini bildirib.

❖ ❖ ❖

MDB PA-nın Aqrar siyasət, təbii ehtiyatlar və ekologiya üzrə daimi komissiyasının iclasında Milli Məclisin deputatı, bu komissiyanın sədr müavini Mixail Zabelin iştirak edib.

Videokonfransda ekoloji təhlükəsizlik, istehsal və istehlak tullantıları, xüsusi mühafizə olunan təbiət əraziləri, taxıl, arıçılıq, radioaktiv çirklənməyə məruz qalan ərazilərin hüquqi rejimi və s. haqqında model qanun konsepsiyaları, həmçinin "Müasir şəhərin siması" mövzusunda konfransa hazırlığın gedişi müzakirə olunub.

Mixail Zabelin çıxış edərək 30 illik işğal dövründə Ermənistan tərəfin Azərbaycan ekologiyasına və təbii sərvətlərinə vurduğu ziyanı faktlarla MDB parlamentarlarının diqqətinə çatdırıb, minlərlə hektar meşə massivinin məhv edildiyini bildirib və bununla bağlı məsuliyyət məsələsinin MDB PA sənədlərində ehtiva olunmasını təklif edib.

❖ ❖ ❖

MDB PA-nın yaz sessiyası çərçivəsində keçirilən "MDB ölkələrində kənd turizminin inkişafı. Problemlər və perspektivlər" mövzusunda "dəyirmi masa"da Azərbaycanı Milli Məclisin deputatları Rauf Əliyev və Tamam Cəfərova təmsil ediblər.

Qarışıq formatda (canlı və onlayn) təşkil olunmuş birgə tədbirdən əsas məqsəd kənd turizminin inkişaf perspektivlərini araşdırmaq, problemin qanunvericilik aspektlərini ətraflı müzakirə etmək, kənd turizminin inkişafı istiqamətində uğurlu strategiya və proqramların həyata keçirilməsi üçün məlumat və təcrübə mübadiləsindən bəhrələnmək olub.

**R.CƏFƏRLİ,**
**"Azərbaycan"**

# Şuşada xüsusi hüquqi tənzimləmə tətbiq olunacaq

Mayın 26-da Milli Məclisin Mədəniyyət, Hüquq siyasəti və dövlət quruculuğu, İqtisadi siyasət, sənaye və sahibkarlıq və Regional məsələlər komitələrinin videokonfrans formatında birgə iclası keçirilib.

İclasda "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanun layihəsi ikinci oxunuşda müzakirə olunub. Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva bildirib ki, bu qanun layihəsi birinci oxunuşda geniş müzakirə olunub. Diqqətə çatdırıb ki, deputatların birinci oxunuşda səsləndirdiyi təkliflər bu qanun qəbul edildikdən sonra onun tətbiqi ilə əlaqədar qəbul ediləcək sənədlərdə öz əksini tapacaq.

Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qanun layihəsinin hüquqi məsələləri ilə bağlı fikirlərini bölüşüb. Bildirib ki, bu qanunun ideya müəllifi cənab Prezidentdir. Qanun layihəsi, əslində, dövlət qoruğu haqqındadır və hüquqi qanunvericilik texnikasına uyğundur. Bu qanun layihəsi, əslində, Şuşa şəhərinin qorunması məqsədilə cənab Prezidentin gələcəyə baxışıdır. Yəqin ki, qanun layihəsində göstərilən bir sıra məsələləri tənzimləyəcək yeni qanun layihələrinin qəbuluna ehtiyac olacaq.




Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qanun layihəsinin iqtisadi aspektləri, işləmə mexanizmləri barədə fikirlərini bildirib, qeyd və təkliflərini diqqətə çatdırıb. Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov qanunun tətbiqi zamanı qarşıya çıxacaq məsələlər, sakinlərin geri qayıtması, orada bələdiyyələrin fəaliyyəti barədə fikirlərini bildirib.

Müzakirələrin yekununda "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanun layihəsi ikinci oxunuşda parlamentin plenar iclasına tövsiyə olunub.

**Aydan XƏLİLOVA,**
**"Azərbaycan"**

# YAP Veteranlar Şurası Respublika günü münasibətilə "Milli istiqlalın təməl günü" mövzusunda videokonfrans keçirib

Mayın 26-da Yeni Azərbaycan Partiyasının Veteranlar Şurası 28 May - Respublika Günü münasibətilə "Milli istiqlalın təməl günü" mövzusunda videokonfrans keçirib.

YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, videokonfransda partiyanın Veteranlar Şurasının üzvləri, partiyanın Ağstafa, Daşkəsən, Gədəbəy, Kəlbəcər, Göygöl, Qazax, Samux, Şəmkir, Tovuz rayon, Gəncə və Naftalan şəhər təşkilatlarının Gənclər Birliyinin fəal üzvləri iştirak ediblər.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 103-cü ildönümü qeyd olunacaq. Cümhuriyyətin ömrü çox qısa olsa da, xalqımızın, milli və dövlətçilik şüurunun formalaşmasında xüsusi yeri və əhəmiyyəti var.

YAP Veteranlar Şurasının üzvü, AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun direktoru Misir Mərdanov mövzu haqqında məruzə ilə çıxış edib. O, qeyd edib ki, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil oldu. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi.



Bildirilib ki, Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi qəbul edildi, ana dilimiz dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Cümhuriyyətin Azərbaycanın dövlətçilik tarixindəki rolunun daim xatırlandığını, Cümhuriyyət rəhbərlərinin xatirəsinin əziz tutulduğunu diqqətə çatdıran Misir Mərdanov deyib: "Ulu Öndər Heydər Əliyev müasir Azərbaycan dövlətinin məhz 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin varisi olmasını dəfələrlə bəyan edib. Eyni zamanda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı Prezident İlham Əliyevin imzaladığı Sərəncam, 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi milli dövlətçilik tariximizə diqqət və qayğısının bariz göstəricisidir".

Məruzədə qeyd olunub ki, bu gün Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müstəqil Azərbaycan Respublikası inkişaf yolunda əmin addımlarla irəliləyir. Hazırda Azərbaycan dünya miqyasında dayanıqlı inkişafa və möhkəm ictimai-siyasi sabitliyə malik olan ölkə kimi tanınır. Biz hamımız fəxr edirik ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə, müzəffər Ordumuz 44 günlük Vətən müharibəsində torpaqlarımızı işğaldan azad etdi, mənfur düşməni yerində oturtdu, Cümhuriyyət qurucularının ruhunu şad etdi.

Tədbirdə həmçinin YAP Veteranlar Şurasının üzvləri Dilarə Seyidzadə, Əli Həsənov və Adilə Abasova çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının tarixi əhəmiyyətindən bəhs ediblər.

Videokonfransda YAP Şəmkir rayon təşkilatının fəal gənci Emin İsmayılovun, YAP Gəncə şəhər təşkilatının fəal gəncləri Mədinə Əsədlinin və Camal Məmmədovun, YAP Göygöl rayon təşkilatının fəal gənci Vüqar Hüseynovun, YAP Qazax rayon təşkilatının fəal gənci Kənan Hüseynlinin sualları cavablandırılıb.

# Azərbaycan Parlamentlərarası İttifaqın 142-ci Assambleyasının iclasında təmsil olunub

**Mayın 24-də və 25-də Parlamentlərarası İttifaqın 142-ci virtual Assambleyasının İdarəedici Şurasının iclası keçirilib. Onlayn iclasa Milli Məclisin deputatları, PAİ İdarəedici Şurasının üzvləri - Kamran Bayramov, Nigar Arpadarai və Tural Gəncəliyev qatılıblar.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda Assambleyanın və Daimi Komitənin virtual sessiyalar prosedurunun xüsusi qaydalarının, İdarəedici Şuranın 206-cı sessiyasının işi haqqında qısa hesabatların təsdiqlənməsi, PAİ-nın 2020-ci ilə dair fəaliyyətinin nəticələri haqqında illik məruzə, 2020-ci ilə dair maliyyə nəticələri, PAİ-nın 2022-2026-cı illər üçün nəzərdə tutulan strategiyası və bir sıra təşkilati məsələlərə baxılaraq müvafiq qərarlar qəbul edilib.



# Daxili İşlər Nazirliyində videokonfrans formatında əməliyyat müşavirəsi olub

Mayın 26-da Daxili İşlər Nazirliyində (DİN) Bakı şəhərində baş tutacaq beynəlxalq idman tədbirləri - "Formula-1" və futbol üzrə Avropa çempionatının 4 oyununun keçiriləcəyi müddətdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmini zamanı qarşıda duran vəzifələrə həsr olunmuş videokonfrans formatında əməliyyat müşavirəsi keçirilib.

DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müşavirəni giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov Azərbaycanın son illər bir çox nüfuzlu idman yarışlarına evsahibliyi etdiyini, daxili işlər orqanlarının belə tədbirlərdə ictimai təhlükəsizliyin və ictimai asayişin təmini sahəsində böyük təcrübə qazandığını diqqətə çatdırıb. Bu ilin iyun-iyul aylarında keçiriləcək beynəlxalq idman tədbirləri zamanı da gücləndirilmiş iş rejimində xidmət aparacaq polis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının qarşıya qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirmələrinin vacibliyini diqqətə çatdıran nazir builki yarışların pandemiya dövrünə təsadüf etdiyini və bununla əlaqədar müəyyən məhdudiyyətlər şəraitində təşkil olunacağını bildirib.

Nazir Vilayət Eyvazov keçiriləcək oyunlar zamanı iştirakçıların, azarkeşlərin və ölkəyə gələn qonaqların təhlükəsizliyinin təmin edilməsi, oyunların keçirildiyi və ətraf ərazilərdə ictimai qaydanın qorunması, şəhər ərazisindəki azarkeşlərin toplanma məntəqələrində təhlükəsizliyin gücləndirilməsi barədə tələb və tövsiyələrini verib.

# Dövlət Komitəsində "Dövlətçiliyi qoruyan dəyərlər: demokratik ənənələr və milli birlik" mövzusunda videokonfrans keçirilib

**Mayın 26-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində (AQUPDK) "Dövlətçiliyi qoruyan dəyərlər: demokratik ənənələr və milli birlik" mövzusunda videokonfrans keçirilib.**



Tədbirdə Yeni Azərbaycan Partiyasının Sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin siyasi partiyalarla iş sektorunun müdiri Səbinə Salmanova, AQUPDK-nın sədri Bahar Muradova, Milli Məclisin deputatları və siyasi partiyaların nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan AQUPDK-nın sədri Bahar Muradova 103-cü ildönümünü qeyd edən Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından və babalarımızın bizə miras qoyduğu müstəqillik və dövlətçilik ənənələrindən danışıb. Bildirib ki, hər bir dövlətin əsasında milli ideologiya dayanır. Azərbaycan müstəqilliyi yolunda çox böyük çətinliklərlə qarşılaşıb və onların öhdəsindən gəlməyi bacarıb. Azərbaycan xalqı ümummilli mənafeləri birləşdirməklə möhkəm dövlət qurmağa nail olub.

"1990-cı illərdə formalaşan milli məfkurəmiz sonrakı illərdə daha da möhkəmləndi. Müasir və müstəqil Azərbaycanın qurucusu Ulu Öndərin xilaskarlıq missiyası sayəsində ölkəmiz inkişaf etdi və dünyada nüfuzu artdı", - söyləyən Bahar Muradova diqqətə çatdırıb ki, Azərbaycan 30 ilə yaxın müddətdə Ermənistanın işğalçılıq siyasətindən əziyyət çəkib. 44 günlük Vətən müharibəsi xalqımızın tarixinə şanlı səhifə kimi yazılıb. Bu çətin dövrdə ölkəmizdə yaşayan müxtəlif xalqlar və millətlər Qarabağ uğrunda döyüşüblər. Vətən müharibəsində hamı bir olub, xalq-iqtidar birliyi daha da möhkəmlənib, siyasi partiyalar birlik nümayiş etdiriblər. Azərbaycanı müharibədə qalib edən babalarımızdan miras qalan zəngin dövlətçilik ənənələri, azərbaycançılıq məfkurəsi və həmrəyliyimizdir. Bu gün hər bir azərbaycanlının qəlbi qürur hissi ilə döyünür. Azərbaycan Vətən müharibəsindəki Qələbəsi ilə bütün dünyaya sübut etdi ki, heç bir qüvvə onun əzmini sındıra bilməz. Vətən müharibəsi dövründə Azərbaycan xalqı monolit birlik və güc nümayiş etdirdi.

Komitə sədri vurğulayıb ki, qlobal hadisələr millətlərin və xalqların qarşısında müəyyən vəzifələr qoyur. Ölkənin ictimai-siyasi qüvvələri gördülər ki, biz birlikdə güclüyük. Çünki təhlükə həmişə var və ermənilər revanşist fikirlər səsləndirirlər, bəzi ölkələr isə onlara dəstək nümayiş etdirilər. Belə qüvvələrin və təsirlərin qarşısını almaq üçün birlik mühüm şərtdir.

Yeni Azərbaycan Partiyasının Sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycanın müstəqillik yolunda əldə etdiyi uğurlardan danışıb. Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin bir əsrdə iki dəfə müstəqillik əldə etdiyini xatırladan YAP-ın Sədr müavini deyib: "Ölkəmiz çoxəsrlik dövlətçilik ənənələrinə malikdir. 28 May ölkəmizdə Respublika Günü kimi qeyd edilir. Bu tarixin dövlətçilik tariximizdə müstəsna yeri var. Azərbaycan dövlətçiliyinin mütərəqqi demokratik ənənələr vardır. Ölkəmizdə bütün millətlər və xalqlar dinc və yanaşı yaşayırlar.

Azərbaycan dövlətçiliyin əsasları Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Heydər Əliyev fenomeninin ən mühüm göstəricilərindən biri də azərbaycançılıq məfkurəsinin, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında dövlətçiliyimizin inkişafıdır. Ümummilli Liderin bütün sahələrdə olduğu kimi, hərb sahəsində də gördüyü işlərin, apardığı islahatların bugünkü Azərbaycan üçün əhəmiyyəti böyük idi. C.Naxçıvanski adına Hərbi Liseyin yaradılması ölkədə hərbi kadrların yetişməsində böyük rol oynadı. 31 Dekabr - Azərbaycanlıların Həmrəyliyi Gününün qeyd olunması məhz Heydər Əliyevin xidmətinin nəticəsidir".

Mərkəzi Aparatın rəhbəri qeyd edib ki, Ulu Öndər Azərbaycan xalqının xilaskarı kimi 1990-1993-cü illərdə çox böyük iş görüb. Həmin illərdə müstəqilliyimiz təhlükə altında idi. Xalqın təkidi ilə hakimiyyətə gələn Ümummilli Lider Azərbaycanı məhv olmaqdan xilas edib. Ölkənin siyasi flaqmanı olan Yeni Azərbaycan Partiyasının yaradılması da məhz onun təşəbbüsüdür. Tahir Budaqov Ulu Öndərin Azərbaycan üçün gördüyü digər mühüm işlərdən, layihələrdən danışaraq, onun siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Ölkəmizin inkişafında əhəmiyyətli rol oynayan neft, qaz və enerji layihələrinin həyata keçirilməsindən danışan YAP Sədrinin müavini Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi vəzifəsinin öhdəsindən layiqincə gəldiyini diqqətə çatdırıb. Bildirib ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsləri əsasında Azərbaycan mədəniyyətinin dünyada təbliği, mədəni və tarixi abidələrin qorunması və mühafizəsi, ölkə həqiqətlərinin dünyaya çatdırılması istiqamətində mühüm işlər görülüb.

Qeyd edilib ki, Azərbaycan 44 günlük Vətən müharibəsində Zəfər qazanmaqla özünü bir daha təsdiqlədi. Postmüharibə dövründə regionda əməkdaşlıq, kommunikasiyaların açılması, Qarabağda quruculuq işlərinin aparılması mühüm vəzifə kimi qarşıya qoyulub və bu istiqamətdə işlər davam etdirilir. Bu gün Azərbaycan ən qüdrətli dövrünü yaşayır. Milli-mənəvi dəyərlərimizi, dövlətçiliyimizi qorumaq və gələcək nəsillərə ötürmək bizim borcumuzdur", - deyə T.Budaqov vurğulayıb.

Sonra çıxış edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin siyasi partiyalarla iş sektorunun müdiri Səbinə Salmanova diqqətə çatdırıb ki, dövlətimizin başçısı İlham Əliyev 2018-ci ildə təkrar prezident seçildikdən sonra ölkəmizdə islahatlar dövrü başladı. Bu islahatlardan biri də siyasi müstəvidə yeni konfiqurasiyanın yaradılması idi. Azərbaycan Prezidenti Administrasiyasında siyasi partiyalarla əlaqələrin qurulması, münasibətlər sisteminin yaradılması işi aparıldı. Məqsəd siyasi partiyalarla əməkdaşlıq, həmrəyliyin yaradılması idi. Hazırda ölkəmizdə siyasi partiyalarla əməkdaşlıq şəffaf şəraitdə həyata keçirilir. Siyasi qüvvələr arasında dialoqun və münasibətlərin formalaşması Azərbaycanın apardığı 44 günlük Vətən müharibəsində özünü büruzə verdi.

S.Salmanova vurğulayıb ki, dövlətin siyasi kursuna uyğun olaraq yaranan milli birliyi daha da möhkəmləndirmək əsas məqsədlərdən biridir. Qarşıda duran əsas məsələ ölkədəki siyasi sabitliyi qoruyub saxlamaqdır.

Görüş digər çıxışlarla davam edib.

# Xalq Cümhuriyyətinin irsi layiqincə yaşadılır

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) 28 May - Respublika Günü münasibətilə tədbir keçirilib.**



Tədbiri AHİK sədri, deputat Səttar Möhbalıyev giriş sözü ilə açaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixindən, müstəqilliyi şərtləndirən amillərdən, həmin dövrdə siyasi şəraitdən danışıb. Sədr bildirib ki, müsəlman aləmində ilk demokratik respublika məhz Azərbaycanda yaranıb: "103 il əvvəl bu, çox böyük tarixi hadisə idi və xalqımızın istedadı, zəhməti, uzaqgörənliyi sayəsində mümkün olub. Azərbaycan Xalq Cümhuriyyətinin iki illik fəaliyyəti dövründə əhəmiyyətli işlər görüldü. Dövlət quruculuğu istiqamətində mühüm addımlar atıldı, ordu yaradıldı, qadınlara ilk dəfə səsvermə hüququ verildi. Bir sözlə, Azərbaycanın gələcək uğurlu inkişafı üçün möhkəm zəmin yarandı".

S.Möhbalıyev deyib ki, Cümhuriyyət dövründə toplanılan tarixi təcrübə, əsasını qoyduğu demokratiya, demokratik dövlət quruculuğu bu gün onun hüquqi və mənəvi varisi olan Azərbaycan Respublikasında uğurla həyata keçirilir və inkişaf etdirilir. "Azərbaycanda müstəqilliyin qorunub saxlanılması və inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Hələ Ümummilli Liderimizin 1969-1982-ci illərdə respublikamıza rəhbərliyi dövründə əvəzsiz xidmətlərinə nəzər salanda bir daha aydın olur ki, ölkəmizdə qanunçuluğun və hüquq qanunvericiliyinin möhkəmləndirilməsinə, strateji əhəmiyyətli sənaye və istehsal müəssisələrinin inşasına nail olmaqla Azərbaycanın iqtisadi inkişaf göstəricilərinə görə keçmiş İttifaq miqyasında ilk yerlərdən birini tutmasını təmin etmiş, müstəqilliyimizə zəmin yaradan uzaqgörən və müdrik addımlar atmışdır", - deyə AHİK sədri qeyd edib.

Ulu Öndərin Naxçıvana rəhbərliyi dövrü xatırladan Səttar Möhbalıyev əlavə edib ki, bu dövr Ümummilli Liderin doğma xalqının dövlət müstəqilliyi uğrunda milli-azadlıq mübarizəsinə rəhbərlik etməsinə meydan açıb. O bildirib ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra ölkəmizdə xaotik proseslərin qarşısı alındı, ictimai siyasi sabitlik təmin edildi. Sədrin sözlərinə görə, Heydər Əliyevin müstəqillik konsepsiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurlar fonunda xüsusi aktuallıqla səslənir. Çıxışı zamanı Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında qələbə ilə başa çatan 44 günlük Vətən müharibəsinə toxunan Səttar Möhbalıyev bildirib ki, qazandığımız layiqli qələbə bu gün hər bir Azərbaycan vətəndaşını ürəkdən sevindirir, hər kəsdə qürur və fəxarət hissi doğurur: "Azərbaycan Ermənistanın işğalçılıq siyasəti üzündən 30 il müddətində həllini tapmayan münaqişənin qısa müddətdə hərbi-siyasi həllinə nail olaraq beynəlxalq hüquq normalarının və ədalətin bərpasını təmin edib. Azərbaycan döyüş meydanında parlaq qələbə qazanmaqla siyasi meydanda da istəyinə nail olub".

Daha sonra tədbirdə çıxış edənlər Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdə yeri və rolundan, əhəmiyyətindən, idarəçilikdə demokratik dəyərlərin bərqərar olmasından, dövlət quruculuğu istiqamətində görülən işlərdən danışıblar.


## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu PHŞ İnfoqrafika işlərinin satın alınması ilə əlaqədar

*açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Müqavilə üzrə iş və xidmətlərin təqdim olunacağı ünvan-Bakı şəhəri, H.Zərdabi 80, Dövlət Sosial Müdafiə Fondu;

**Tender 1 LOT üzrə keçirilir.**
**İştirak haqqı: 30,00 (otuz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu : - 4**

İştirak haqqının ödənilməsi yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirilə bilər. Müsabiqəyə daxil olduqdan sonra "ASAN ödəniş"lə ödə "düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 29.2-ci maddəsinə əsasən tenderdə iştirak haqqı geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün tələb olunan sənədlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) və rekvizitləri.*
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
3. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa notarial təsdiq edilməsi mütləqdir) 2021-ci il tarixdə alınmış arayış qəbul ediləcəkdir.*
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2020-ci il üzrə).*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) 2021-ci il tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir.*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd (Malgöndərən (podratçı) tərəfindən hazırlanır).*
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənəd (notarial təsdiq edilmiş)).*
9. *Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).*
10. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) 2021-ci il tarixdə alınmış arayış qəbul ediləcəkdir.*
11. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat.*
12. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (Malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən (məhkumluq ilə bağlı arayış)) alır. 2021-ci il tarixdə alınmış arayış qəbul ediləcəkdir.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18.06.2021-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **29.06.2021-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **30.06.2021-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

*Tender komissiyası*

## Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi

*açıq tender elan edir*

Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi və DOST mərkəzləri üçün uniformaların və fərdi mühafizə vasitələrinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Aysel İlyasova (0125255026 #9234)

**İştirak haqqı: LOT üzrə 20 (iyirmi) manat**
**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Yasamal filialı**
**Kod: 805562**
**Müxbir Hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT : IBAZAZ2X**
**H/hesabı: AZ59IBAZ38090019446221732216**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
3. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).*
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2020-ci il üzrə).*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).*
7. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması.*
8. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması.*
9. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması.*
10. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18.06.2021-ci il saat 16:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **29.06.2021-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **30.06.2021-ci il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*


# Azərbaycanda koronavirus infeksiyasından daha 596 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 596 nəfər müalicə olunaraq sağalıb, 203 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 333 min 97 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 322 min 273 nəfər müalicə olunaraq sağalıb, 4885 nəfər vəfat edib. Aktiv xəstə sayı 5939 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 477 min 12 test aparılıb. Dünənki test sayı isə 8397-dir.


## "Azərbaycan İnvestisiya Şirkəti" ASC işçiləri üçün könüllü tibbi sığorta təminatı üzrə xidmətlərin *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan şirkətlər (012) 488 80 10 (1203) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusu prosesində iştirak etmək üçün sənədlər 03.06.2021-ci il saat 17.00-dək qəbul olunur.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən 01 may 2021-ci il tarixdə **www.etender.gov.az** Portalında və "Azərbaycan" qəzetində elan olunmuş "HORECA sahəsi üzrə şirniyyat ehtiyacları" layihəsinə dair daxili bazar araşdırması ilə əlaqədar məsləhət xidmətlərinin satın alınması ilə əlaqədar keçirilmiş təkliflər sorğusunda **"MBA LTD" MMC** qalib şirkət elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən 01 may 2021-ci il tarixdə **www.etender.gov.az** Portalında və "Azərbaycan" qəzetində elan olunmuş "Bal və arıçılıq məhsulları istehsalı" və "Meyvə qurularının və meyvə pürelərinin istehsalı" layihələri üzrə daxili bazar araşdırması ilə əlaqədar məsləhət xidmətlərinin satın alınması ilə əlaqədar keçirilmiş təkliflər sorğusunda **"Alliance Consulting Group Azerbaijan" MMC** qalib şirkət elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*


# Düşmən Kəlbəcər, Gədəbəy və Şuşa istiqamətlərində ordumuzun mövqelərini atəşə tutub

Mayın 24-dən 26-dək Azərbaycan Ordusunun Kəlbəcər və Gədəbəy rayonlarında yerləşən mövqeləri Ermənistan Respublikasının Geqarkunik vilayəti ərazisindəki düşmən mövqelərindən fasilələrlə atıcı silahlardan atəşə tutulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, eyni zamanda Ermənistan tərəfi təxribat məqsədilə Şuşa şəhəri ətrafında yerləşən postlarımız istiqamətində avtomat silahlardan havaya atəş açıb.

Cavab atəşi açılmayıb. İtki yoxdur.

Yeni nəşrlər

# Ulu Gəncənin salnaməsini yazan 100 yaşlı qəzetdən bəhs edən kitab

**Azərbaycan mətbuatında özünəməxsus dəstxəti, layiqli yeri olan "Gəncənin səsi" qəzetinin yüz yaşı tamam oldu. Bu günlərdə çapdan çıxmış "100 ilin işığında" adlı kitab bu mətbu orqanın bir əsrlik fəaliyyətinə həsr edilib.**




Sadəcə qəzetin deyil, həm də Gəncənin də bir əsrlik tarixi barədə məlumatlarla zəngin olan kitabın müəllifi "Gəncənin səsi" qəzetinin baş redaktoru "Qızıl qələm", "Həsən bəy Zərdabi" ali ədəbi və ali media mükafatlarının laureatı, "Tərəqqi" medallı Rəfiqə Sadıqova, redaktoru tarix elmləri doktoru, professor, Əməkdar müəllim Həsənbala Sadıqovdur.

"100 ilin işığında" kitabında "Gəncənin səsi" qəzetinin tarixi dövrləri və yaradıcı fəaliyyəti araşdırılıb, bir sıra mühüm məqamlara və maraqlı faktlara aydınlıq gətirilib, oxuculara yeni sənədlər təqdim edilib. Qeyd olunub ki, keşməkeşli yol keçmiş, fəqli ictimai-siyasi formasiyalarda müxtəlif adlarla nəşr olunmuş bu qəzet zaman-zaman üzləşdiyi çətinliklərə baxmayaraq, öz məqsədinə, məramına daim sadiq qalıb, hər bir dönəmdə milli mətbuatımızın ənənələrini, əsl qəzetçilik prinsiplərini yaşadıb.

Kitaba Rəfiqə Sadıqovanın yazdığı "100 ilin şərəf salnaməçisi" adlı ön sözdə "Gəncənin səsi" qəzetinin bir əsrlik tarixinə nəzər salınıb. Müəllif yazır: "Oxucunu inandıra bilməsən, onun istədiyini təqdim etməsən, səndən uzaqlaşa bilər. Lakin bütün arxiv materiallarında saralıb-solmuş qəzet səhifələrində bir məqamın şahidi olduq. "Gəncənin səsi" adı dəyişilsə də, amalı dəyişməyib. Daim insanların arzusuna qanad, sevincinə şərik olub. Yeri gələndə hakim olub, doğru yolu nişan verib. Şəhidinə yas tutub, uğurlara yol açıb. Nəbzi Gəncə ilə birlikdə vurub".

Müəllif Gəncə kimi, bu qəzetin də adının dəfələrlə dəyişdirildiyini, taleyinin keşməkeşli olduğunu bildirib: "Müxtəlif arxivlərdə apardığımız araşdırmalar zamanı qəzetin adının 7 dəfə dəyişdirilməsi bir daha təsdiqini tapıb. Qəzet 1920-ci il may ayının 5-də "Qırmızı Gəncə" adı ilə ilk dəfə işıq üzü görüb. Beləliklə, "Qırmızı Gəncə", "Zərbə", "Kirovabad bolşeviki", "Kirovabad fəhləsi", "Gəncə kommunisti" (Gəncə vilayət mərkəzi olduğu zaman qəzet qısa müddətdə bu adla çıxıb), "Kirovabad kommunisti" və nəhayət, "Gəncənin səsi" adı ilə çap olunub". Müəllif qeyd edib ki, qəzet 1990-cı il yanvarın 1-dən etibarən "Gəncənin səsi" adı ilə oxuculara təqdim olunur.

Nəfis tərtibatda çap olunmuş "100 ilin işığında" kitabı 367 səhifədən və 5 fəsildən ibarətdir. Birinci fəsildə Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın Gəncəyə səfərlərinin illər üzrə xülasəsi verilib və rəngli fotoları dərc olunub.

Kitabın ikinci fəslində bir əsrə işıq tutan, üç dəfə əlifba dəyişikliyinə məruz qalan, yeddi dəfə adı dəyişdirilən qəzetin nələrdən və necə yazdığından söz açılıb.

"Mətbuat cəmiyyətin güzgüsüdür" başlıqlı üçüncü fəsildə yüz ildir Gəncəni tərənnüm edən qəzetin müxtəlif dönəmlərində tarixin sərt sınaqlarından keçdiyi vurğulanıb. Lakin qəzetin bütün zamanlarda qarşısına qoyduğu missiyanın öhdəsindən layiqincə gələ bildiyi, ulu Gəncənin 100 illik salnaməsini yazdığı qeyd olunub.

"100 ilin işığında" kitabının dördüncü fəslində "Gəncənin səsi" qəzetinin redaktorlarından bəhs olunub. Bu mətbu orqana müxtəlif illərdə rəhbərlik edən redaktorlar - Cavad Kərbalayi Əsəd oğlu Fərhadov, Kəramət Hidayət oğlu Tağıyev, Abdulla Mustafa oğlu Şərifov, Fərid Əli oğlu Cəfərov, Zahid Fərəc oğlu İsmayılov, Sabir İsmayıl oğlu Hacıyev, Rəfiqə Yusif qızı Sadıqova barədə oxuculara ətraflı məlumat verilib.

Kitabın "Gəncə dünyanın gözü ilə" başlıqlı beşinci fəslində oxucunun diqqətinə çatdırılıb ki, müstəqillik illərində Gəncə təkcə zahirən dəyişməyib, həm də çox mühüm və möhtəşəm beynəlxalq tədbirlərə evsahibliyi edib, rəsmi qonaqları qarşılayıb. Bu fəsildə Gəncəyə rəsmi səfərlərə gələnlərin, beynəlxalq konfrans, festival və açılış mərasimlərinin iştirakçılarının şəhərlə bağlı "Gəncənin səsi"ndə əksini tapmış fikirlərinə yer ayrılıb.

Bir əsrlik tarixi həqiqətləri əks etdirən, arxiv materialları ilə zəngin olan "100 ilin işığında" kitabı mətbuat tarixi tədqiqatçıları üçün də mühüm mənbə sayılır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Avropanın enerji tarixində yeni səhifə

## "Cənub qaz dəhlizi"nin açılış mərasimindən 3 il keçir

*Əvvəli 1-ci səh.*

Layihənin nəhəngliyini nəzərə alsaq, onun təməlqoyma və açılış mərasimləri arasındakı vaxt çox qısa olmuşdur. Cəmi 4 ilə yaxın bir vaxt ərzində qazanılan böyük uğur - "Cənub qaz dəhlizi"nin işə düşməsi Azərbaycanın bundan əvvəl həyata keçirdiyi qlobal neft-qaz və ixrac layihələrinin təcrübəsinə əsaslanır. Belə ki, Azərbaycan üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərini də təxminən 4 ilə çəkmişdir. Sonra bu kəmərlə yanaşı, "Şahdəniz-1" qazını Azərbaycanın 13 rayonundan keçməklə Gürcüstana və Türkiyəyə çatdıran Bakı-Tbilisi-Ərzurum boru xəttini inşa etmişdir. Əslində Bakı-Tbilisi-Ərzurum kəməri "Cənub qaz dəhlizi"nin bünövrəsi, başlanğıcı rolunu oynamışdır.

"Cənub qaz dəhlizi"nin açılış mərasimində Prezident İlham Əliyev demişdir: "2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. Bu da çox önəmli layihədir. Bu layihə olmadan "Şahdəniz" yatağının işlənməsi mümkün deyildi. Beləliklə, ilk dəfə olaraq 2007-ci ildə Azərbaycan qazı Gürcüstana və Türkiyəyə nəql edilməyə başlamışdır... Doğrudan da bunlar tarixi nailiyyətlərdir. "Şahdəniz" yatağının gələcək işlənilməsi ilə bağlı addımlar atılmağa başlanıldı. Əlbəttə, biz hamımız yaxşı bilirdik ki, böyük həcmdə Azərbaycan qazını dünya bazarlarına çıxarmaq üçün qaz kəməri lazımdır. Beləliklə, "Cənub qaz dəhlizi"nin yaradılması ilə bağlı praktiki işlərə start verildi. Çox ciddi işlər, danışıqlar aparıldı".

İndi bütün bunlar reallıqdır. Avropanın enerji xəritəsini dəyişdirən nəhəng layihə uğurla sona çatıb.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu, Azərbaycanın liderliyi ilə həyata keçirilən, tarixi əhəmiyyətə malik, xalqımızın firavan gələcəyini təmin edən, regionda, Avropada təhlükəsizliyin, əməkdaşlığın möhkəmlənməsinə xidmət göstərən qlobal layihədir. Dövlət başçısı, bununla yanaşı, "Cənub qaz dəhlizi"nin beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq şəraitində reallaşdığını da dəfələrlə vurğulamışdır.

"Cənub qaz dəhlizi"nin ən önəmli cəhətlərindən biri layihədə bütün iştirakçı tərəflərin maraqlarının təmin edilməsi, maraqlar balansının gözlənilməsidir. Belə ki, layihənin icrasında geniş beynəlxalq əməkdaşlıq formatı yaradaraq yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya iştirak edir. Üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro tərəfdaşlar kimi növbəti mərhələdə layihəyə qoşulacaqlar. Deməli, "Cənub qaz dəhlizi"nin "qol"larının da olacağı mümkündür, çünki Avropanın Azərbaycan qazına ehtiyacı var. Eyni zamanda biz öz ixrac imkanlarımızı genişləndirmək istəyirik və bu baxımdan Avropa bazarı çox əlverişlidir.

"Cənub qaz dəhlizi" layihəsinin uğurla tamamlanması nümayiş etdirir ki, komanda şəklində aparılan iş həmişə yaxşı nəticə verir. Burada istehsalçı, tranzit və istehlakçı ölkələrin maraqları üst-üstə düşür.

Beləliklə, "Cənub qaz dəhlizi" qarşıdan gələn 100 il ərzində Azərbaycan xalqına xidmət edəcək və milli iqtisadiyyatımızın inkişafında mühüm amil olacaq. Ölkəmizin regionda və Avropada nüfuzunun artmasını, Azərbaycanla Qərb arasında münasibətlərin daha yüksək pilləyə qalxmasını şərtləndirəcək. Azərbaycanın enerji ixrac edən və tranzit ölkə kimi əhəmiyyəti daha da artacaq. Layihədə iştirak edən bütün ölkələr, şirkətlər mənfəət götürəcək. Bu layihə Azərbaycana böyük gəlirlər gətirəcək, insanların rifahının yüksəlməsinə təsir göstərəcək, xalqımızın firavan gələcəyini təmin edəcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# "Ağ qızıl" bu il də üz ağardacaqmı?

## Fermerlər bütün hallarda ötənilki nəticələrini üstələməyi hədəfləyiblər

*Əvvəli 1-ci səh.*

Aqronom Nəbi Ağayev təmsil etdiyi şirkət tərəfindən 2 min hektardan artıq sahədə səpin aparılmasının planlaşdırıldığını bildirərək bunun 70 faizindən çoxunda səpinin başa çatdığını deyir. Səpin müasir texnikalardan istifadə edilərək ammofos və digər gübrələri verməklə aparılır. Əkin zamanı aqrotexniki qaydalara riayət olunur. Qarşıya məqsəd qoyulub ki, qısa zamanda səpin yüksək səviyyədə başa çatdırılsın.

Biləsuvarda səpin mövsümünə nisbətən erkən əkilən pambıq sahələrinin təxminən 1000 hektarından çoxunda yüksək çıxış əldə olunub. Fermerlər işlərini "Vahid sahədə, vahid əkin" konsepsiyasına uyğun olaraq qururlar. Hazırda həmin sahələrdə ilk kultivasiya işləri aparılır.

Biləsuvar Dövlət Aqrar İnkişaf Mərkəzinin mütəxəssisi Mikayıl İmanov fermerlərlə aparılan mütəmadi görüşlərin, maarifləndirmə işlərinin öz bəhrəsini verdiyini bildirir. Mütəxəssis deyir ki, onlar tərəfindən hazırda 80 hektar sahəyə nəzarət olunur. Eyni zamanda, fermerlərə müəyyən güzəştlərin edilməsi də nəzərdə tutulur.

Salyanda da işlər yaxşı gedir. Rayondakı Dövlət Sort-Sınaq Məntəqəsində bu il 13 hektar sahədə 14 növ yüksək reproduksiyalı pambıq növü becərilir. Bunun 13 növü yerli, 1-i isə Türkiyədən gətirilmiş sortlardır.

Məntəqədə səpin aparılan 13 hektar sahənin 0,5 hektarı sınaqda olan sortlardır. Səpin vaxtında başa çatdırılıb, artıq becərmə işlərinə başlanılıb. Hazırda sahələrdə seyrəltmə və bitkinin alaq otlarından təmizlənməsi işləri aparılır. Həmçinin bitkiyə yemləmə gübrəsi verməklə suvarma işləri də görülür. Qeyd edək ki, ötən il məntəqədəki pambıq sahələrinin hər hektarından 34 sentner xam pambıq götürülmüşdü.

Məntəqədə yetişdirilmiş pambıq sortlarının hər birindən nümunələr götürülərək laboratoriya şəraitində yoxlanılır. Yoxlama zamanı daha çox lif keyfiyyəti, toxum çıxımı və s. göstəricilər aydınlaşdırılır və dövlət reyestrinə salınaraq onun toxumçuluğu təşkil olunur.

İmişli rayonunun pambıqçıları isə bu il qarşılarına sahələrindən 28 min ton məhsul yığmağı məqsəd qoyublar. Cari il rayonda 8167 hektar sahədə pambıq əkilib və 95 faiz çıxış əldə olunub. Yüksək məhsuldarlıq əldə etmək üçün işlər aqrotexniki qaydalara uyğun yerinə yetirilir. Rayon üzrə 1275 fermer pambıq istehsalı üçün müqavilə bağlayıb. Artıq sahələrdə ilk becərmə işlərinə start verilib və texnikalar sahələrə çıxarılıb. Xatırladaq ki, ötən il rayon üzrə 7923 hektar sahədə pambıq tarlalarından orta hesabla 30 sentner olmaqla 27 min tondan çox məhsul yığılmışdı. Bu il isə qarşıya qoyulan hədəf daha böyükdür.

Saatlı pambıqçılarının da məqsədi keçən ildəkindən çox məhsul əldə etməkdir. Rayonda çiyid səpini başa çatıb. Ötən il ölkəmizin pambıqçılıq rayonları arasında ən çox - 47 min 365 ton xam pambıq istehsal edən Saatlı fermerləri cari ildə də yüksək məhsuldarlığa nail olmaq üçün səylə çalışırlar. Bu il 48 min tondan çox pambıq istehsalı nəzərdə tutulub.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən verilən məlumata görə, cari mövsümdə Saatlıda 13 min 950 hektar sahədə pambıq becərilməsi nəzərdə tutulub. Qarşıya qoyulan məqsədə çatmaq üçün 3 min 90 torpaq mülkiyyətçisi ilə müqavilə bağlanıb, şum, arat, malalama işləri vaxtında aparılıb, sahələrə üzvi gübrələr verilib, səpin üçün yüksək reproduksiyalı toxum tədarük olunub. Səpinə mütəşəkkil başlayan mülkiyyətçilər qısa müddətdə nəzərdə tutulduğundan 335,5 hektar çox sahəyə çiyid səpiblər.

Sonda onu bildirək ki, Dövlət Statistika Komitəsinin mayın 1-nə olan məlumatına görə, cari il ölkə üzrə 86,3 min hektar sahədə pambıq əkilib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Paytaxtın lift infrastrukturu modernləşdirilir

Prezident İlham Əliyevin paytaxtda çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı imzaladığı sərəncamının icrası ilə əlaqədar Bakı Şəhər "Lifttəmir" İstehsalat Birliyi tərəfindən bu sahədə böyük təcrübəsi və geniş texniki imkanlara malik olan Almaniyanın Wittur Holding GMBH şirkəti ilə müqavilə imzalanıb.





Müqavilə şərtlərinə uyğun olaraq əvvəlcə 581 ədəd yeni lift Bakıya gətirilərək quraşdırılıb. Həmçinin liftlərə xidmət göstərilməsi və onların daimi nəzarətdə saxlanılması üçün Mərkəzi Dispetçer Xidməti Sistemi qurulub və lazımi texniki avadanlıqlarla təchiz edilib.

Müqavilənin icrasının davamı olaraq şirkətdən daha 625 ədəd lift alınaraq Bakı şəhərinə gətirilib. Hazırda bu liftlərin paytaxt Bakı şəhərinin müxtəlif rayonlarında istismar müddəti başa çatmış köhnə liftlərin yerinə quraşdırılması işləri sürətlə həyata keçirilir.

Bağlanan müqavilə şərtlərinə uyğun olaraq alınan liftlərin quraşdırılma prosesinin icrası və işlərin gedişatı ilə yerində tanış olmaq üçün Wittur Holding GMBH şirkətinin nümayəndəsi Ralf Günter Bakıya gəlib. Qonaq əvvəlcə "Lifttəmir" İstehsalat Birliyinin istehsalat bazasında quraşdırılmış Mərkəzi Dispetçer Xidməti Sisteminin işi ilə, daha sonra paytaxtın bir neçə rayonunda quraşdırılması aparılan və quraşdırılmış liftlər, burada gedən proseslərlə tanış olub və məsləhətlərini verib. Almaniyalı qonaq görülən işlərin keyfiyyətindən razı qaldığını, gələcəkdə də əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənəcəyinə ümidvar olduğunu bildirib.

***Ülkər XASPOLATOVA,***
***"Azərbaycan"***

# Sülh və inkişafa xidmət edən möhtəşəm tədbir

*Əvvəli 1-ci səh.*

Bu siyasət insanın təhlükəsizliyi, xoşbəxtliyi və rifahı üçün davamlı inkişaf niyyətlərinə əsaslanır.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi dövlət rəhbərimizin təşəbbüsü ilə səkkiz ildir fəaliyyət göstərir. Mərkəz maraqlı layihələri ilə ölkə xaricində kifayət qədər nüfuz qazanıb. Bura beynəlxalq üzvlər qoşulub, İdarə Heyəti formalaşdırılıb, həmsədrləri seçilib və baş katibi təyin olunub.

Onlayn formatda keçirilən "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" mövzusunda tədbirə dünyanın müxtəlif ölkələrindən qoşulmuş iştirakçıların, ictimai-siyasi xadimlərin yüksək statusu da Nizami Gəncəvi Mərkəzinin beynəlxalq nüfuzundan xəbər verirdi.

Hazırda dünyada ən mötəbər müzakirə platformalarından biri kimi tanınmış Bakı Qlobal Forumu ilə yanaşı, bu mərkəz də müxtəlif məsələlərə dair ardıcıl tədbirlər təşkil edir. Bu tədbirlərdə bir çox regional və qlobal məsələlərə diqqət yetirilir, bəşəriyyət üçün faydalı həllərin tapılmasına töhfə verilir. Ötən dövrlərdə mərkəzin təşkilatçılığı ilə keçirilmiş müzakirələr pandemiyaya qarşı qlobal həmrəylikdən tutmuş, yeni dünya nizamı, ərzaq təhlükəsizliyi, təhsil, sülhün əldə olunmasında qadınların rolu və s. ən müxtəlif, eyni zamanda aktual məsələləri əhatə edib.

### Gələcəyə baxış

Azərbaycan on illər boyu sülh danışıqları aparanda da, 44 günlük müharibə ilə illərin problemlərini həll edəndə də nə istədiyini yaxşı bilirdi. Bu müharibə bizə torpaqlarımızı düşməndən təmizləmək, işğalçıya sərf edən şəkildə dondurulmuş münaqişənin buzunu əritmək, status-kvonu ortadan götürmək, yeni reallıqlar yaratmaq, haqq-ədaləti bərpa etmək, məcburi köçkünlərimizin əzəli torpaqlarına qayıdışına nail olmaq üçün lazım idi.

Ermənistan isə o torpaqları nə üçün işğal etdiyini, bundan nə qazandığını indiyədək heç kimə doğru-dürüst izah edə bilməyib. 30 il ərzində ermənilər bu ərazilərdə heç bir iqtisadi dəyər yaratmaq iqtidarında olmayıblar. Həyata keçirdikləri isə viranəlikdir. Azərbaycanın vəhşicəsinə dağıdılan əmlakıdır. Vətəndaşlarımızın talan edilmiş mülkiyyətidir. Ermənilər buna görə beynəlxalq məhkəmələr qarşısında cavab verəcəklər. Bədnam əməllərinin əvəzini ödəməli olacaqlar. O zaman bir daha anlayacaqlar ki, faşizmə məxsus millətçilik nağılları heç kimə xeyir gətirməyib. Bir daha başa düşəcəklər ki, nə istədiyini dərk etməyən, kimlərinsə əlində alətə çevrilən, regionun inkişafını əngəlləyən, özünü çıxılmaz vəziyyətə məhkum edən bir xalqın gələcəyi ola bilməz!

Azərbaycanın Vətən müharibəsindəki Zəfərindən sonra Nizami Gəncəvi Mərkəzinin "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" mövzusuna xüsusi yer ayırması isə heç də təsadüfi deyil. Azərbaycanın bu tarixi qələbəsi Cənubi Qafqaz regionunda böyük dəyişikliklər yaradıb. Tamamilə yeni reallıqlar formlaşdırıb. Azərbaycan Prezidentinin də çıxışında bildirdiyi kimi, yeni vəziyyət müasir yanaşmalar tələb edir. Elə müzakirələrin əsas məqsədlərindən biri də mövcud reallıqları birgə dəyərləndirməkdən, dövlət başçısı İlham Əliyevin regionun gələcəyi ilə bağlı baxışları ilə tanış olmaqdan ibarət idi. Dövlət rəhbərimiz öz mövqeyi ilə göstərdi ki, Azərbaycan indi yeni bir mərhələyə daxil olaraq daha çox gələcəyə baxır: "Biz indi gələcəyə baxmalıyıq. 30 illik işğala, azad olunmuş ərazilərdə genişmiqyaslı dağıntılara və onların məhv etdiklərinə baxmayaraq, Azərbaycan gələcəyə nəzər salmağa, vahid inteqrasiya edilmiş Cənubi Qafqaz regionunun bir hissəsi olaraq öz gələcəyini planlaşdırmağa hazırdır". Daha sonra dövlət rəhbərimiz ümid etdiyini bildirdi ki, vaxt gələcək və biz, sözün əsl mənasında, Cənubi Qafqazda fəal əməkdaşlıqdan və inteqrasiyadan danışacağıq: "Biz artıq çox mühüm təkliflərlə və təşəbbüslərlə çıxış etmişik və yeri gəlmişkən, onlar 10 noyabr 2020-ci il tarixli birgə Bəyanatda da əks olunub. Bu, xüsusən də, kommunikasiyaların və yeni daşımalar dəhlizlərinin açılması ilə bağlıdır".

Azərbaycan Prezidenti bu layihənin həyata keçirilməsi ilə bağlı işin artıq başlandığını xüsusi vurğuladı. Əlavə etdi ki, Azərbaycan bu məqsədlə artıq texniki və maliyyə imkanlarını ayırıb. Zəngəzur dəhlizi açıldıqdan sonra bütün region ölkələri üçün yeni imkanlar yaranacaq. "...Azərbaycan əməkdaşlığa və ümumi gələcəyimizin planlaşdırılmasına açıqdır, çünki biz istəsək də, istəməsək də qonşuyuq və yanaşı yaşamalıyıq və bir daha bu birgə yaşamanı öyrənməliyik. Bu, asan deyil. Burada emosiyalar var. Xüsusən də, Azərbaycan xalqı azad edilmiş torpaqlara səfərlər etdiyi zaman və tam yerləyeksan olunan yerləri görəndə, siz yəqin ki, təsəvvür edə bilərsiniz, hansı hissləri keçirirlər. Lakin siyasətçilərin rolu öz gündəliklərini müdafiə etməkdən və yalnız qarşılıqlı fəaliyyət sayəsində regionda dayanıqlı inkişafın, sülhün və təhlükəsizliyin olacağını izah etməkdən ibarətdir".

### Sağlam düşüncəyə xitab

Bu gün növbəti parlament seçkisi ərəfəsində böhran içində orabura vurnuxan, gələcəyə ümidini itirmiş başıpozuq kütlə qarşısında müəyyən xal qazanmağa çalışaraq Azərbaycana və azərbaycanlılara nifrət ritorikasından hələ də əl çəkməyən erməni siyasiləri Prezident İlham Əliyevin bəyanatları barədə ciddi düşünsələr, bu hər kəsin faydasına olar. Ən çox isə erməni xalqı bu bəyanatlardan nəticə çıxarmalıdır. Öz siyasi ambisiyaları naminə illərdir xalqı nifrət xəstəliyinə yoluxdurub alverlə məşğul olan erməni siyasilərindən fərqli olaraq Azərbaycan Prezidenti bu xəstəliyin erməniləri necə dərin uçuruma apardığını və regionda inkişafın qarşısını aldığını, faydalı təşəbbüsləri əngəllədiyini yaxşı görür.

Ona görə də müzakirələrdə Azərbaycan Prezidenti erməniləri öz günahları ucbatından itirilmiş bir neçə onilliyin ağır dərslərindən, itirilmiş fürsətlərindən nəticə çıxarmağa çağırır. Bütün olub keçənlərə rəğmən, Azərbaycanın daimi sülh, davamlı tərəqqi, Cənubi Qafqazın təhlükəsizliyi və inkişafı, qarşılıqlı inteqrasiya məkanına çevrilməsi üçün əməkdaşlıq təşəbbüslərinə açıq olduğunu gizlətmir. Bütün bəyanatlarında, həyata keçirdiyi siyasətin hər bir məqamında olduğu kimi, Prezident İlham Əliyev yenə də tam səmimidir. Qətiyyətli və dürüstdür. Xalqımızın istək və arzularını, maraqlarını təmsil edir, vətəndaşlarımızın yekdil dəstəyini duyur. Kütlə önündə siyasi dividendlər qazanmaqdan ötrü populist fikirlərdən uzaqdır. Ümumi prosesin ayrı-ayrı mərhələlərinin hər biri ilə bağlı öz müdrik baxışları var. Bu mərhələlər üzrə qazanılan nəticələrin ümumi nailiyyət kimi sülh və inkişafa, insanların xoşbəxtliyi arzusuna xidmət etməsinə çalışır. Azərbaycan Prezidenti hər mərhələdə nələrin edilməli olduğunu çox gözəl bilir. Dünyanın harasında yaşamasından asılı olmayaraq, bütün sağlam düşüncəli insanların onun xoş niyyətlərini yaxşı anladıqlarından, düzgün nəticə çıxardıqlarından əmindir. Elə bu əminliklə də insanların sağlam düşüncələrinə xitab edir.

### "Dediyimiz sözün arxasında dayanırıq"

Azərbaycan Prezidenti Cənubi Qafqazda hamının maraqlarına uyğun regional inkişafın və əməkdaşlıq perspektivlərinin reallaşmasından ötrü bu bölgəyə təsir imkanlarına malik böyük dövlətlərin, beynəlxalq təşkilatların məsuliyyətini də yüksək diplomat ustalığı ilə onlara xatırlatdı. Ölkəmizin irəli sürdüyü qlobal təşəbbüslərin, kommunikasiya layihələrinin həyata vəsiqə qazanması, Ermənistanın yenidən nifrət bataqlığında boğulub inteqrasiya proseslərindən kənarda qalmaması, revanşist hisslərdən müalicə olunub özünü "Dəmir yumruğun" ölümcül zərbəsinə məhkum etməməsi üçün dəstəyə ehtiyac olduğunu vurğuladı. Azərbaycan bu dəstəyi Minsk qrupundan, həmsədr ölkələrdən, region ölkələrindən, beynəlxalq təşkilatlardan, eləcə də Avropa İttifaqından gözləyir. "Çünki düşünürəm ki, bu, nadir əməkdaşlıq formatı olacaq və Ermənistan bu şansı əldən versə, peşman olacaq". Azəraycan Prezidenti dedi: "Bu, son şansdır. Otuz il keçib, qeyd etdiyim kimi, onların hazırkı vəziyyəti 1991-ci ildə olduğundan daha pisdir. Beləliklə, bu, son şansdır, onlar bunu əldən versələr, bəlkə də daha çətin olacaq".

Prezident İlham Əliyev ABŞ və Rusiyanın ölkəmizlə bağlı siyasətinin, eləcə də bizim bu ölkələrlə əlaqədar siyasətimizin hər zaman sabit və proqnozlaşdırılan olduğunu vurğuladı. "Çünki biz hər zaman nəzərdə tutduğumuzu deyirik və hər zaman dediyimiz sözün arxasında dayanırıq". Cənab İlham Əliyevin fikrincə, ABŞ və Rusiyanın Azərbaycanla bağlı siyasəti sabit olmağa davam edəcək. Dağlıq Qarabağ münaqişəsinin həllindən sonra isə gələcəyi planlaşdırmaq daha da asan olacaq: "Çünki bu münaqişə bizim çox fəal əməkdaşlıq formatına sahib ola biləcəyimiz, lakin bu və ya digər səbəbdən sahib ola bilmədiyimiz bəzi əməkdaşlıq sahələri üçün müəyyən mənada əngəl törədirdi. Beləliklə, Dağlıq Qarabağ münaqişəsinin həlli tamamilə yeni mühit yaradır və ümid edirik ki, Rusiya və ABŞ ölkəmizə böyük əhəmiyyət verməyə davam edəcək".

### Azərbaycanda geniş yenidənqurma planları hazırlanır

Beynəlxalq tədbir Azərbaycanın təşəbbüsü və aparıcı tərəf kimi yaxından iştirakı ilə həyata keçirilən qlobal layihələrlə bağlı cari vəziyyətin ümumu mənzərəsinin yaradılması baxımından da maraqlı idi. Dövlət rəhbərimiz hazırda Avropaya qazın yeni mənbəyi olan "Cənub qaz dəhlizi" layihəsinin bura cəlb olunmuş ölkələr arasında əlaqələri böyük dərəcədə gücləndirdiyini, bu məsələnin tamamlanmış kimi hesab olunduğunu qeyd etdi.

Ölkə rəhbəri "Bir kəmər, bir yol" təşəbbüsünün reallaşması üçün Azərbaycanın ərazisində bütün zəruri nəqliyyat layihələrinin tamamlandığını diqqətə çatdırdı. "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində ölkəmizin Asiya və Avropadakı tərəfdaşlarla mühüm bağlantılarının olduğunu qeyd etdi. "Bu önəmli layihənin bir hissəsi olmaq üçün biz öz infrastrukturumuzu, o cümlədən dəniz limanını, Xəzər hövzəsində ən böyük gəmi parkını və dəmir yolu imkanlarını təmin edirik. Beləliklə, biz bu layihəyə maliyyə və siyasi cəhətdən investisiya yatırmışıq. Ümid edirəm ki, bu iki mühüm sahə - enerji təhlükəsizliyi və nəqliyyat təhlükəsizliyi nəinki təkcə Azərbaycanın gələcək iqtisadi inkişafı üçün önəmli rol oynayacaq, - çünki bu, əlavə gəlirlərin yaranmasına səbəb olacaq, - həm də regional sabitliyə ciddi şəkildə töhfə verəcək. Çünki ölkələr birbirindən asılı olur, ölkələr bir gəmidə olduğu üçün bir komandanın üzvü olur və əlbəttə ki, qarşılıqlı dəstəyin səviyyəsi artacaq".

Ölkə Prezidenti Azərbaycanın işğaldan azad edilmiş ərazilərində investisiya yatırmaq üçün çoxlu imkanların olduğunu da diqqətə çatdırdı. Azərbaycanda böyük yenidənqurma planlarının hazırlandığını söylədi. Xarici bankların Azərbaycana, əslində, lazım olmayan birbaşa maliyyə dəstəyi verməsi əvəzinə, əcnəbi və yerli investorlara işğaldan azad edilmiş ərazilərdə layihələr həyata keçirməyə kömək göstərməsinin bizi sevindirmiş olacağını vurğuladı.

Bir sözlə, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" mövzunda tarixi dialoq aktual müzakirələri, verilən mesajları ilə əhəmiyyətli bir tədbir kimi yadda qaldı. Regionun gələcəyi ilə bağlı xoş niyyətlərin reallaşmasına bu tədbirin böyük töhfələr verəcəyi şübhəsizdir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# "İqtisadi inkişafda sahibkarlığın rolu" mövzusunda görüş keçirilib

**Mayın 26-da Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının sahibkarlarla görüşü keçirilib. "İqtisadi inkişafda sahibkarlığın rolu" mövzusunda keçirilən görüşə 100-dək sahibkar qoşulub və ölkəmizdəki mövcud biznes mühiti müzakirə edilib, onları narahat edən məsələlər dinlənilib.**

Görüşü dövlət-özəl dialoqunun nümunəsi kimi qiymətləndirən Vüsal Qasımlı bildirib ki, artıq Azərbaycanda COVID-19 pandemiyasının təsiri ilə yaranmış iqtisadi resessiya dayanıb, ilin ortasından iqtisadi artım bərpa olunacaq: "Bu ilin ilk 4 ayında qeyri-neft sənayesində 16,5 faiz, kənd təsərrüfatında 2,3 faiz, pərakəndə ticarətdə 0,1 faiz və informasiya və rabitə xidmətlərində 3,8 faiz artım olub. Bundan sonrakı müddətdə turizm, nəqliyyat, ictimai iaşə, tikinti və s. sahələrdə də iqtisadi artımın bərpa edilməsi üçün fəaliyyətlər göstərilir. Azərbaycanda fiskal və monetar siyasət, biznes mühitinin təkmilləşdirilməsi, xarici bazarlara çıxış, insan kapitalının inkişafı, korporativ idarəetmə, maliyyəyə çıxış, dövlət satınalmaları, vergi-gömrük inzibatçılığının sadələşdirilməsi istiqamətində aparılan işlər iqtisadi artımı sürətləndirməyə hesablanıb. Qarabağın işğaldan azad edilməsi və regional kommunikasiyaların açılması perspektivi iqtisadi inkişafımız üçün əlavə imkanlar yaradıb. Dövlət-özəl dialoqu davamlı şəkildə iqtisadiyyatın əsas çağırışlarının müəyyən edilməsində və problemlərin həllində əməkdaşlıq üçün əhəmiyyət kəsb edir. Sahibkarların təşkilatlanması, yeni biznes modelinin və biznes mədəniyyətinin formalaşması, rəqəmsal həllərin və yaşıl inkişaf prinsiplərinin tətbiqi iqtisadi inkişafda mühüm rol oynayır".

Azərbaycan Sahibkarlar Konfederasiyasının Prezidenti Məmməd Musayev bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyilə ölkəmizdə yaradılmış əlverişli biznes mühiti sahibkarlığın sürətli inkişafı üçün zəmindir: "Xüsusən də Azərbaycan torpaqlarının işğaldan azad olunmasından sonra qalib ölkənin sahibkarı kimi iqtisadi inkişafda iştirak etmək qürurvericidir". O, sahibkarların təşkilatlanması, regionların inkişafında maliyyə əlçatanlığının yüksəldilməsi, maliyyə institutlarının rəqabət qabiliyyətinin artırılması, maliyyə alətlərinin genişləndirilməsi, idxaldakı bəzi məhsulların yerli istehsalla əvəzlənməsi imkanlarına toxunub. Dövlət-özəl dialoqu üçün Azərbaycan Sahibkarlar Konfederasiyasının mövcud platformalarından istifadə imkanları barədə məlumat verən M.Musayev biznes təşkilatlarının inkişafının ümumi iqtisadi tərəqqiyə verdiyi töhfələri qeyd edib.

Azərbaycan Sahibkarlar Konfederasiyasının baş katibinin müavini Hüquq və Sosial Tərəfdaşlıq şöbəsinin müdiri Xəqan Hümmətzadə güclü regional və biznes assosiasiyalara ehtiyac olduğunu və dövlət-özəl əməkdaşlığında ikitərəfli platformaların daha konstruktiv işlədiyini qeyd edib.

X.Hümmətzadə Konfederasiyaya daxil olan məktublarda "Vergi Məcəlləsi", gömrük prosedurları, xüsusən də ƏDV-nin diferensiallaşması, istehsal yönümlü müəssisələrdə məhsulun maya dəyəri ilə bağlı məsələlərin öndə olduğunu bildirib.

Azərbaycan Sahibkarlar Konfederasiyasının vitse-prezidenti Vüqar Abbasov ikitərəfli əməkdaşlıq platformalarının fəaliyyəti barədə məlumat verib. Dövlət Gömrük Komitəsi ilə ASK arasında Əməkdaşlıq Şurasında müzakirəyə çıxarılan məsələlər, bu yaxınlarda keçirilən monitorinqin nəticələri barədə iştirakçılara məlumat verib. "Monitorinqdə iştirak edən 214 respondentdən 93%-i idxalla məşğul olub. Bu isə onu göstərir ki, idxal əməliyyatları hələ də yüksəkdir. Təbii ki, hazır məhsulun ticarətini etmək daha asandır. Ona görə də istehsalla məşğul olan şirkətlərə dəstək verilməlidir", - deyə V.Abbasov bildirib.

Azərbaycan Sahibkarlar Konfederasiyasının Turizm və Xidmət üzrə İş Komissiyasının sədri Ruslan Quliyev turizm, ASK-nin vitse-prezidenti Jalə Hacıyeva "Sahibkarlıq subyektlərinin maliyyə əlçatanlığı", ASK-nin İnnovasiyalar və Rəqəmsal Texnologiyalar Komissiyasının sədri Elçin Əliyev "İnnovasiyaların inkişafında Azərbaycan biznesinin rolu" mövzularında çıxış ediblər.

Sonra ASK-nin vitse-prezidenti Vüqar Zeynalovun moderatorluğu ilə müzakirələr və sual-cavab sessiyası keçirilib. Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının sədri Səkinə Babayeva, Bank Tədris Mərkəzinin direktoru Cavanşir Abdullayev, "Neon" şirkətinin direktoru Arif Həsənov, "TİTAN Qrup" şirkətinin nümayəndəsi Telman Abbasov, Azərbaycan Keyfiyyət Assosiasiyasının sədri Samir Novruzlu, "TUNA" MMC-nin direktoru Rəşid Çulaqov, İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyinin sədri Ruslan Atakişiyev çıxış edərək ölkəmizdəki əlverişli biznes mühiti, sahibkarlığın iqtisadi inkişafa töhfələri, İslam bankçılığı, rəqabət mexanizmi, KOB-un inkişafı, vergi-gömrük qanunvericiliyi, biznesə dövlət dəstəyi, beynəlxalq əlaqələrin qurulması, sənaye parklarının fəaliyyəti, dövlət-özəl partnyorluğu, regionlarda biznesin inkişafı məsələləri üzrə təkliflərini səsləndiriblər.

Yekunda qərara gəlinib ki, konkret məsələlərin müzakirəsi və müvafiq təkliflərin hazırlanması üçün İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi və Azərbaycan Sahibkarlar Konfederasiyası bu görüşləri gələcəkdə də təşkil etsinlər.

*"Azərbaycan"*

## Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mərkəzi istilik sisteminin (kondisionerin) təmiri xidmətinin göstərilməsi üzrə satınalınma prosedurunu həyata keçirmək məqsədilə *kotirovka sorğusu elan edir*

İddiaçılar satınalma prosedurunun predmetinə uyğun hazırlanmış Əsas şərtlər toplusunu Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondundan əldə edə bilərlər. Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalı və 04 iyun 2021-ci il saat 15:00-dək Sahibkarlığın İnkişafı Fonduna təqdim edilməlidir.

Əlaqələndirici şəxs: Zaur Məmmədov

**Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi, 172**
**Telefon: (012) 310 23 02**
**Fax: (012) 432 37 17; e-mail: info@edf.gov.az**

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxsi *açıq tender elan edir*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxsi Agentliyin yeni binasında strukturlaşdırılmış kabel sisteminin qurulmasına lazım olan avadanlıq və xidmətlərin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə sistemdə asan pay vasitəsi ilə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə və müsabiqə üçün təkliflərini təqdim edə bilərlər.

**İştirak haqqı: 250,00 (iki yüz əlli) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxsi**
**VÖEN: 1003853391**
**Bank : "Kapital Bank" ASC 28 May filialı**
**KOD: 200123**
**MÜXBİR HESABI: AZ37NABZ01350100000000001944**
**VÖEN: 9900003611**
**SWIFT BIK AIIBAZ2X**
**H/HESABI: AZ29AIIB38060019440816558112**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (sənədlər notarial qaydada təsdiq edilməli və PDF formatında yerləşdirilməlidir).*
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
3. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış (malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır, 01.05.2021-ci il tarixdən sonrakı tarixə alınmış vergi arayışı qəbul ediləcəkdir, sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir, əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir).*
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (əgər təsdiq edilibsə 2020-ci il üzrə, əks halda 2019-cu il üzrə).*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir, əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir. 01.05.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir).*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (malgöndərən (podratçı) tərəfindən hazırlanır).*
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışının və vergi uçotunda olduğunu təsdiq edən sənədin notarial qaydada təsdiq olunmuş surəti);*
9. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (uçotda olduğu vergi orqanından yüklülük barədə arayış, əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir, 01.05.2021-ci il tarixdən sonrakı tarixə alınmış arayışlar qəbul ediləcəkdir).*
10. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması.*
11. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən məhkumluq ilə bağlı arayış alınır).*
